Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

**AZƏRTAC**

# Şeyxülislam Allahşükür Paşazadə İslam Əməkdaşlıq Təşkilatının baş katibi ilə görüşüb



**Səudiyyə Ərəbistanında səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə iyulun 9-da İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Yusif bin Əhməd əl-Useymin ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını İƏT-in baş katibinə çatdıran şeyxülislam dövlətimizin başçısının təşkilatla münasibətlərə böyük önəm verdiyini vurğulayıb, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində İƏT-in hər zaman Azərbaycanın yanında olmasına görə baş katibə təşəkkürünü çatdırıb.

Azərbaycana çoxsaylı səfərlərini məmnunluqla xatırlayan Yusif bin Əhməd əl-Useymin, öz növbəsində, Azərbaycan Prezidentinin İslam həmrəyliyinin möhkəmləndirilməsinə verdiyi töhfələri qiymətləndirərək dövlətimizin başçısı İlham Əliyevə səmimi salamlarının çatdırılmasını xahiş edib.

Əfqanıstanda sülh və istiqrar mövzusuna həsr edilmiş beynəlxalq müsəlman üləma konfransının hədəflərindən danışan İƏT-in baş katibi Əfqanıstanda siyasi qruplaşmalar, təriqətlər və tayfalar arasında silahlı münaqişənin dialoqla əvəz edilməsi, beləliklə, bu ölkədə milli barışığın təmin olunması istiqamətində İslam dünyasında xüsusi çəkisi və nüfuzu olan ülamaların böyük töhfə verə biləcəyini vurğulayıb.

Əfqanıstanda gedən siyasi proseslərə və bu ölkənin xüsusiyyətinə hələ Sovetlər dönəmindən yaxşı bələd olduğunu bildirən şeyxülislam Allahşükür Paşazadə bu ölkədə sabitliyin bərpa edilməsinin və milli barışığın təmin olunmasının bütövlükdə İslam dünyası üçün böyük əhəmiyyət daşıdığını bildirib, Azərbaycanın bu istiqamətdə artıq bir neçə beynəlxalq konfransa - 2017-ci ilin dekabr ayında Bakıda "Asiyanın ürəyi-İstanbul prosesi"nin 7-ci nazirlər toplantısına, 2018-ci ilin iyun ayında isə Əfqanıstana dair Beynəlxalq Təmas Qrupunun toplantısına ev sahibliyi etdiyini xatırladıb. Ciddədə və Məkkədə keçiriləcək konfransın Əfqanıstanda milli barışığın bərpası istiqamətində yaxşı başlanğıc olacağını vurğulayan Qafqaz Müsəlmanları İdarəsinin sədri belə yığıncaqların davamlı olmasının vacibliyini vurğulayıb.

Ölkəmizin Əfqanıstanda sabitliyin bərqərar olması üçün gördüyü işləri yüksək qiymətləndirən İƏT-in baş katibi şeyxülislam Allahşükür Paşazadənin bu konfransda iştirakını Azərbaycan dövlətinin məsələyə verdiyi önəm və mövqeyi kimi dəyərləndirib.

Görüşdə Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev də iştirak edib.

**AZƏRTAC**

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Səudiyyə Ərəbistanına səfərə gedir

**İyulun 9-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif bin Əhməd əl-Useyminin dəvəti ilə Səudiyyə Ərəbistanı Krallığına yola düşəcək.**

QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfərin məqsədi iyulun 10-11-də İslam Əməkdaşlığı Təşkilatı tərəfindən təşkil olunmuş və Əfqanıstanda sülh və istiqrar mövzusuna həsr edilmiş beynəlxalq müsəlman üləma konfransında iştirak etməkdir. Konfrans Səudiyyə Ərəbistanının Ciddə və Məkkə şəhərlərində keçiriləcək.

Qeyd edilib ki, müxtəlif müsəlman ölkələrindən ən nüfuzlu İslam alimlərinin qatılacağı konfransın gündəliyinə bir sıra önəmli məsələlərin müzakirəsi, o cümlədən Əfqanistanda sülhün və istiqrarın bərqərar edilməsi, habelə terrorizmə və zorakı ekstremizmə qarşı birgə mövqeyin nümayişi daxildir.

**AZƏRTAC**

# Rəcəb Tayyib Ərdoğanın yeni müddətə prezidentliyə başlaması münasibətilə Ankarada rəsmi ziyafət keçirilib

*Ziyafətdə Baş nazir Novruz Məmmədovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak edib*





**İyulun 9-da Rəcəb Tayyib Ərdoğanın prezidentlik fəaliyyətinin yeni döneminin başlaması münasibətilə Türkiyənin paytaxtı Ankarada rəsmi ziyafət keçirilib.**



AZƏRTAC xəbər verir ki, ziyafətdə Azərbaycanı Baş nazir Novruz Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Rəsmi ziyafətin keçirildiyi Beştəpədəki Prezident Administrasiyasının qarşısında fəxri qarovul dəstəsi düzülmüşdü.

Toplardan yaylım atəşi açıldı.

Prezident Rəcəb Tayyib Ərdoğan rəsmi ziyafətdə çıxış etdi.

Çıxışında iyunun 24-də ölkədə keçirilən növbədənkənar prezident və 27-ci çağırış parlament seçkilərinin nəticələri, Türkiyədə yeni idarəetmə sistemi, dövlət strukturundakı islahatların əhəmiyyəti, daxili və xarici siyasətin istiqamətləri, həyata keçirilən iqtisadi layihələrin önəmi, terrorçuluqla mübarizə, qarşıda duran digər vəzifələr və s. mühüm məqamlardan danışan Rəcəb Tayyib Ərdoğan qeyd etdi ki, Türkiyəni dünyanın ən inkişaf etmiş 10 ölkəsi sırasına çıxarmaq qarşıda duran əsas vəzifələrdən biridir.

Günümüzə qədər Türkiyə yolunda canını fəda edən şəhidlərə, eləcə də iyulun 8-də Uzunköprü-İstanbul marşrutu ilə hərəkət edən sərnişin qatarının qəzaya düşməsi nəticəsində həlak olanlara Allahdan rəhmət diləyən dövlət başçısı əminliklə qeyd edib ki, yeni idarəetmə sistemi ölkəni qüdrətləndirməklə bərabər, hər bir vətəndaşın hüquq və bərabərliyini təmin edəcək.

Sonra Türkiyənin Diyanət İşləri Başqanı Əli Ərbaş yeni idarəçilik sisteminə və Prezident Rəcəb Tayyib Ərdoğanın ali dövləti fəaliyyətinə uğurlar diləyib.

Ziyafətdə 22 prezident, 28 baş nazir və parlament sədri, 6 beynəlxalq təşkilatın rəhbərləri də daxil olmaqla 6 min nəfər dəvətli şəxs iştirak edib.

Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğan dövlət başçısı kimi iyulun 9-da Türkiyə Böyük Millət Məclisində (TBMM) and içib.

Bununla da Türkiyədə prezident üsul-idarəli hökumət rəsmən fəaliyyətə başlayıb.

Türkiyə Böyük Millət Məclisinə gələrkən Prezident Rəcəb Tayyib Ərdoğanı vətəndaşlar böyük coşqu ilə qarsalayıblar.

Andiçmə mərasimindən sonra Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbiri ziyarət edib.

Xatırladaq ki, Türkiyə Ali Seçki Komissiyasının seçkilərin yekunu ilə bağlı rəsmi məlumatına görə, ölkə üzrə təxminən 60 milyon seçicinin 26 milyon 330 min 823 nəfəri Rəcəb Tayyib Ərdoğana səs verib.

Mərasimdən sonra Prezident Rəcəb Tayyib Ərdoğan mətbuat konfransı keçirib.

Prezidentin sədrliyi ilə yeni tərkibli hökumət iyulun 13-də ilk iclasını keçirəcək.

**AZƏRTAC**

# ADA Universitetində XII Bakı Yay Enerji Məktəbi keçirilir





**İyulun 9-da ADA Universitetində XII Bakı Yay Enerji Məktəbinin açılışı olub. Bu ali təhsil ocağının Xəzər Enerji və Ətraf Mühit Mərkəzinin, SOCAR-ın və "BP Azerbaijan"ın dəstəyi ilə keçirilən illik Yay Enerji Məktəbi iyulun 21-dək davam edəcək.**

AZƏRTAC xəbər verir ki, XII Bakı Yay Enerji Məktəbinin açılış mərasimində çıxış edən ADA Universitetinin rektoru, professor Hafiz Paşayev bildirib ki, ADA Universitetində ənənəvi olaraq XII Yay Enerji Məktəbi keçirilir. Bu yay məktəbi SOCAR ilə birgə təşkil edilir. Bakı Yay Enerji Məktəbi ADA Universitetinin həyata keçirdiyi ilk təlim proqramlarından biridir. Təlim proqramının məqsədi Azərbaycanın qlobal səhnədə mahiyyəti və yerini tanıtdırmaq, bölgənin enerji sənayesi barədə biliyi olan ekspertlərin sayını artırmaqdır.

H.Paşayev qeyd edib ki, ADA Universitetinin artıq brend proqramına çevrilən Bakı Yay Enerji Məktəbi bu il 12 ölkədən - ABŞ, Türkiyə, Böyük Britaniya, Estoniya, Latviya, Niderland, İordaniya, İsrail və digər ölkələr olmaqla 35 iştirakçı cəlb edib. İki həftə ərzində məktəb iştirakçıları Azərbaycanın və Xəzəryanı dövlətlərin enerji siyasəti ilə bağlı yüksək səviyyəli rəsmilər və nüfuzlu təhlilçilərdən ibarət ekspert qrupunun mühazirələrini dinləyəcək, enerji sahəsində fundamental anlayışlar və terminlər, hüquqi baza, neft və qaz hasilatının Xəzəryanı bölgənin beynəlxalq münasibətlərinə, eləcə də ətraf mühitə təsiri, təbii resursların səmərəli idarəedilməsi kimi vacib mövzuları əhatə edəcək, əldə etdikləri biliklərini interaktiv məşğələlər üçün istifadə edəcəklər. Regionda həyata keçirilən böyük enerji layihələri barədə məktəb iştirakçılarına məlumat veriləcək.

Qeyd olunub ki, XII Bakı Yay Enerji Məktəbinə ənənəvi olaraq ABŞ-ın Texas ştatından "A&M" universitetindən 10 tələbədən ibarət qrup qoşulub.

Həmçinin H.Paşayev XII Yay Enerji Məktəbinin iştirakçılarına ADA Universiteti barədə məlumat verib.

Yay Enerji məktəbinin iştirakçılarını salamlayan SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə Azərbaycan neft siyasətinin tarixi, "Əsrin müqaviləsi"nə aparan yol, həyata keçirilən transmilli neft və qaz layihələri barədə ətraflı məlumat verib, universitetin tələbələrini iyulun 9-da qeyd olunan Diplomatik xidmət günü münasibətilə təbrik edib.

Akademik bildirib ki, Azərbaycanın proqnozlaşdırılan təbii qaz ehtiyatı 3,4 trilyon kubmetr, xam neft ehtiyatı isə 2 milyard tondur. Hazırda ölkədə 2,5 trilyon kubmetr dəqiqləşdirilmiş çıxarıla bilən qaz, 1,5 milyard ton çıxarıla bilən neft-kondensat ehtiyatı var.

"Artıq 19-cu ildir ki, "Azəri-Çıraq-Günəşli" layihəsinin iştirakçıları mənfəət neftindən gəlir əldə edirlər. 2018-ci il yanvarın 1-dək dünya bazarında Azərbaycanın payına düşən 250,7 milyon ton mənfəət nefti satılıb ki, bu da AÇG-dən hasil edilmiş bütün neftin 55 faizini təşkil edir. 2006-cı ilin mayından böyük həcmdə Azərbaycan neftini Avropaya və dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri də "Əsrin müqaviləsi" sayəsində meydana gəldi. Bu kəmər ulu öndər Heydər Əliyevin ikinci şah əsəridir. Azərbaycan, Gürcüstan və Türkiyənin ərazilərindən keçib, birbaşa Aralıq dənizinə çıxan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri layihəsinin də bir vaxtlar əleyhinə çıxanlar, onun çəkilməsini istəməyənlər vardı. Amma indi baxın: 2018-ci il yanvarın 1-dək dünya bazarına 466,7 milyon ton neft çıxarılıb ki, bunun da 350 milyon tona qədəri Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəql edilib," - deyə X.Yusifzadə bildirib.

TAP və TANAP layihələrindən danışan X.Yusifzadə bildirib ki, TANAP-ın inşası bu il, TAP-ın tikintisi isə 2019-cu ildə qurtaracaq. İlkin mərhələdə "Cənub Qaz Dəhlizi" ilə ildə 16 milyard kubmetr "Şahdəniz" qazı ixrac ediləcək. Bunun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropa ölkələrinə veriləcək. Cənub Qaz Dəhlizinin nəqletmə gücü sonralar ildə 31 milyard kubmetrə qədər artırılacaq.

Qeyd edək ki, Bakı Yay Enerji Məktəbi sənayeyə aid məsələləri təhlil etmək üçün dünyanın tanınmış alim, mütəxəssis və siyasətçilərini bir araya gətirir. İştirakçılar enerji və ətraf mühit, enerji hüququ və iqtisadiyyatı, neft-qaz sənayesində idarəçilik və SOCAR-ın inkişaf strategiyasına dair məsələlərlə geniş tanış olurlar. Həmçinin Bakı Yay Enerji Məktəbi dünyanın müxtəlif ölkələrindən olan dövlət və fərdi neft şirkətlərinin rəhbərləri ilə görüşmək və əlaqə qurmaqda böyük imkanlar yaradır. Yay məktəbində Azərbaycanın xarici işlər, energetika, ekologiya və təbii sərvətlər nazirləri ilə yanaşı, "TAP", "BP", "ExxonMobil", "Total", "Statoil" və digər neft şirkətlərinin yüksəkvəzifəli şəxsləri çıxış edirlər. Təlimçilərin siyahısı Oksford Universiteti, Sciences-Po, Prinston Universiteti, Rusiya Elmlər Akademiyası və dünyanın digər aparıcı elm mərkəzlərinin görkəmli mütəxəssisləri ilə tamamlanır.

Proqramı uğurla bitirənlər sertifikatlarla təltif olunacaqlar.

**AZƏRTAC**

# Dövlətimizin başçısının tapşırıqları təxirəsalınmadan icra olunur





**İyulun 9-da ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin kollegiya iclası keçirilib.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasında və enerji sistemindəki vəziyyətlə əlaqədar keçirdiyi müşavirədə verdiyi tapşırıqlarla bağlı ədliyyə orqanlarının üzərinə düşən vəzifələr müzakirə olunub.

Nazir Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı sosial-iqtisadi tərəqqisinin təmin edildiyini, bütün sahələrdə irəliləyişlərə nail olunduğunu bildirib. Dövlətimizin başçısının tapşırıqlarından irəli gələn məsələlər vurğulanaraq, bu sahədə ədliyyə orqanlarının qarşısında duran mühüm vəzifələrə toxunulub. İqtisadi inkişafa mane olan korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, fəaliyyətdə şəffaflığın artırılması, habelə büdcə vəsaitlərindən qənaətlə istifadə edilməsi, izafi xərclərin qarşısının alınması üzrə konkret tapşırıqlar verilib.

İclasda, həmçinin ölkənin enerji sistemində baş vermiş fövqəladə hadisə ilə əlaqədar dövlətimizin başçısının göstərişləri diqqətə çatdırılıb. Bildirilib ki, bu sahədə yaranmış ciddi problem ölkə rəhbəri tərəfindən dərhal nəzarətə götürülərək elə həmin tarixdə qəzanın səbəblərinin araşdırılması və nəticələrinin aradan qaldırılması məqsədilə Dövlət Komissiyası yaradılıb, görülmüş operativ tədbirlər nəticəsində enerjinin verilməsi bərpa edilib.

Qəza baş verdikdən sonra dərhal Ədliyyə Nazirliyinin struktur qurumlarının, o cümlədən xüsusi mühafizə olunan penitensiar və tibb müəssisələrinin dayanıqlı enerji ilə təminatı üzrə zəruri tədbirlər görülüb, təhlükəsizlik və mühafizə tədbirləri gücləndirilib.

Kollegiya iclasında ədliyyə orqanlarının işinin, o cümlədən elektron sistemlərin, reyestrlərin və digər informasiya resurslarının, Probasiya xidmətinin elektron monitorinq mərkəzinin, xüsusi mühafizə olunan müəssisə və qurğuların, video-müşahidə kameralarının fasiləsiz fəaliyyətinin təmin olunması üzrə tədbirlərə dair əlavə tapşırıqlar verilib.

Həmçinin mülki müdafiə və mühafizə tədbirlərinin, məsul növbətçiliyin təkmilləşdirilməsi, texniki avadanlığın, habelə ehtiyat enerji mənbələrinin və zəruri rabitə vasitələrinin işlək vəziyyətdə saxlanılması, müasir generatorların quraşdırılması ilə bağlı və digər konkret tədbirlər müəyyən olunub.

**AZƏRTAC**

## Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin Avropa ölkələrinə ilk səfəri başlayır

**İyulun 10-da Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Avropa ölkələrinə ilk rəsmi səfərə yola düşür. Komitə sədri 4 ölkədə - Fransa, Almaniya, Ruminiya və Ukraynada bir sıra rəsmi şəxslərlə, eyni zamanda, həmin ölkələrdə yaşayan azərbaycanlılarla və diaspor təşkilatlarının nümayəndələri ilə görüşəcək. Bu barədə AZƏRTAC-a Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib.**

Səfər proqramına ictimai xadimlər, Azərbaycanın ali məktəblərindən məzun olmuş xarici vətəndaşlar, Azərbaycan Xalq Cümhuriyyəti mühacirlərinin ailə üzvləri, həmçinin xaricdə təhsil alan azərbaycanlı gənclər ilə görüşlər də daxildir.

**AZƏRTAC**

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

**ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 10-da Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun rəhbəri polkovnik Vladimir Minarik keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru, Oqnyen Joviç və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi polkovnik-leytenant Ralf Bosshard aparacaq.

**AZƏRTAC**

## Çin və Rusiyada Azərbaycan Şərab evləri açılacaq



**Şərabçılığın inkişafı və təşviqi məqsədilə Çinin Şanxay şəhərində, daha sonra isə Pekin və digər şəhərlərdə, eləcə də Rusiyada Azərbaycan Şərab evlərinin açılması planlaşdırılır.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu barədə iqtisadiyyat naziri Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının üzvləri ilə görüşdə deyib.

İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə keçirilən tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar, yerli istehsalın stimullaşdırılması, rəqabətədavamlı qeyri-neft məhsullarının istehsalı, ixracatçılara yaradılmış əlverişli şərait, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə tanıdılması və xarici investisiyaların təşviqi istiqamətində görülən işlər barədə məlumat verib.

İstehsalın və ixracın dəstəklənməsi üçün kompleks və ardıcıl tədbirlərin həyata keçirildiyini vurğulayan nazir Şahin Mustafayev Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının yaradılmasının sahibkarlığın inkişafı, eləcə də şərab istehsalı və ixracının artırılması, ölkəmizin ixrac imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edib. Qeyri-neft məhsulları ixracının artırılması istiqamətində özəl bölməyə hərtərəfli dövlət dəstəyi göstərildiyini vurğulayan iqtisadiyyat naziri bu sahədə ixracın təşviqi mexanizminin mühüm rol oynadığını diqqətə çatdırıb. Bildirilib ki, ixrac təşviqinin 45 faizə yaxını üzüm şərabı və digər spirtli içkilərin payına düşür.

Qeyd edilib ki, qeyri-neft ixracının genişləndirilməsi məqsədilə həyata keçirilən ixrac missiyalarında və sərgilərdə Azərbaycan istehsalı olan şərablara böyük maraq göstərilir. İndiyədək Azərbaycan məhsulu olan şərablar 7 ixrac missiyasında və beynəlxalq sərgilərdə 7 vahid ölkə stendində təmsil olunub. Azərbaycanın Belarus, Ukrayna və Latviyada yaradılmış ticarət evlərində yerli şərab məhsullarımız nümayiş olunur. Şərabçılığın inkişafı və təşviqi məqsədilə Çinin Şanxay şəhərində, daha sonra isə Pekin və digər şəhərlərdə, eləcə də Rusiyada Şərab Evlərinin açılması planlaşdırılır.

Tədbirdə Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının üzvləri şərab istehsalçılarına dəstək mexanizmlərinin və "Made in Azərbaycan" brendinin təşviqi tədbirlərinin sahibkarlara böyük stimul yaratdığını vurğulayıblar. Diqqətə çatdırılıb ki, Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının üzvləri bir çox biznes forumlarda və digər tədbirlərdə iştirak edir, məhsullarını təşviq etmək imkanı qazanır və uğurlu nəticələr əldə edirlər.

Görüşdə "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələr və onların icrası, şərab məhsullarının istehsalı və ixracının artırılması imkanları müzakirə olunub, sahibkarların təklifləri dinlənilib, sualları cavablandırılıb.

**AZƏRTAC**

## Dünya Səhiyyə Təşkilatının baş direktoru Ədliyyə Nazirliyinin Beynəlxalq Təlim Mərkəzi ilə tanış olub

**Azərbaycan Prezidenti İlham Əliyevin penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq məhkumların və təqsirləndirilən şəxslərin tibbi və dərman təminatı yaxşılaşdırılır. Bu sahədə beynəlxalq təşkilatlarla vərəmə qarşı effektiv mübarizə aparılaraq, müsbət nəticələrə nail olunub. Penitensiar sistemdə vərəmlə mübarizədə ölkəmizin nailiyyətlərinə beynəlxalq maraq artaraq bir çox dövlətlər müsbət təcrübəmizdən bəhrələnirlər.**



Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə ölkəmizin praktiki olaraq cəzaçəkmə müəssisələrində bu spesifik təcrübəsini yaymaq üçün dünyada ilk dəfə 2012-ci ildə Ədliyyə Nazirliyi İxtisaslaşdırılmış müalicə müəssisəsinin nəzdində Vərəm üzrə Təlim Mərkəzi yaradılıb. 2014-cü ildə Dünya Səhiyyə Təşkilatı (DST) Avropa üzrə Regional Bürosu tərəfindən ona "Həbsxanalarda vərəmə nəzarət və profilaktika üzrə DST ilə Əməkdaşlıq Mərkəzi" beynəlxalq statusu verilib. Mərkəzin vərəmlə mübarizədə Azərbaycanın təcrübəsinin digər dövlətlərə yayılmasında və öyrənilməsində səmərəli fəaliyyəti nəzərə alınaraq cari ildə bu status növbəti dörd il müddətinə uzadılıb.

Ölkəmizdə səfərdə olmuş Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus və onu müşayiət edən şəxslər Beynəlxalq Təlim Mərkəzinə maraq göstərərək səfər ediblər. Qonaqlar mərkəzin fəaliyyəti, müasir şəraiti, tədris otaqları, həmçinin videokonfrans vasitəsilə distant treninqin təşkili ilə tanış olublar.

Tədbirdə ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi Ceyhun Həsənov, Tibb baş idarəsinin rəisi Rəfail Mehdiyev və nazirliyin digər aidiyyəti məsul şəxsləri iştirak ediblər.

Tanışlıq zamanı ölkəmizin penitensiar müəssisələrində tibbi təminatın müasirləşdirilməsi, vərəmlə mübarizə sahəsində həyata keçirilən tədbirlər və bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığa dair təqdimat keçirilib.

Tibb baş idarəsinin rəisi R.Mehdiyev məlumat verib ki, Azərbaycanda dövlətimizin güclü siyasi iradəsinə uyğun olaraq ümumbəşəri sosial bəla olan vərəmlə mübarizə daim diqqətdə saxlanılır, bu sahədə DST-nin tövsiyələrinə uyğun strategiyalar hazırlanıb, xüsusi qanun qəbul edilib. Beynəlxalq təşkilatlarla əlaqəli surətdə müvafiq proqramlar və layihələr həyata keçirilib, o cümlədən penitensiar müəssisələrdə bu xəstəliyə qarşı mübarizəyə xüsusi önəm verilib.

Bu məqsədlə məhkumlara yüksək ixtisaslı tibbi yardımın göstərilməsi sahəsində Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə səmərəli əməkdaşlıqda tibb xidməti, məhkumların dərman təminatı əsaslı şəkildə yaxşılaşdırılıb, penitensiar müəssisələr müasir tibb avadanlığı ilə təchiz olunub.

Vərəmli məhkumlar üçün innovativ laborator və diaqnostik avadanlıqla təchiz edilmiş ayrıca müalicə müəssisəsinin açılması bu xəstəliklə mübarizədə böyük əhəmiyyət kəsb edib.

Bu sahədə DST və BQXK ilə birgə fəaliyyət çox müsbət nəticələr verib, vərəmin dəqiq diaqnozunu ən qısa vaxtda müəyyən etməyə imkan verən yeni ekspress-test dünyada ilk dəfə penitensiar müəssisələrdə məhz Azərbaycanda tətbiq olunub.

Həyata keçirilən kompleks tədbirlər hesabına, cəzaçəkmə müəssisələrində vərəmin müalicəsi üzrə göstəricilər DST-nin müəyyən etdiyi hədəfləri aşaraq dərmanlara həssas vərəmin müalicəsi üzrə 92 faiz, müalicəyə çətin tabe olan dərmana davamlı vərəmin müalicəsi üzrə isə 78 faiz nəticələrə nail olunub ki, bu da dünyada ən yüksək göstəricilərdəndir. Bunun nəticəsi olaraq, son beş ildə cəzaçəkmə müəssisələrində vərəmə yoluxma halları 2 dəfə, vərəmdən ölüm isə 1995-ci illə müqayisədə 105 dəfə azalıb.

Həmçinin bildirilib ki, Azərbaycanın bu sahədə nailiyyətləri Dünya Səhiyyə Təşkilatı, Qlobal Fond, BQXK, Vərəmi Dayandırmaq üzrə Tərəfdaşlıq və digər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir, ölkəmizin müsbət təcrübəsi örnək kimi dəyərləndirilərək digər dövlətlərə tövsiyə edilir. Habelə BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusuna malik olan ABŞ-ın İslah Müəssisələri və Həbsxanalar Beynəlxalq Assosiasiyası tərəfindən Səhiyyə Mükafatına layiq bilinib.

Ötən dövrdə Beynəlxalq Təlim Mərkəzində Qərbi Avropa, Asiya, Afrika, Mərkəzi Amerika və MDB dövlətlərinin Ədliyyə, Səhiyyə və Daxili İşlər nazirliklərini, penitensiar müəssisələrin tibb xidmətlərini, qeyri-hökumət və beynəlxalq təşkilatları təmsil edən nümayəndə heyətləri üçün 8 beynəlxalq treninq keçirilib, Azərbaycan təcrübəsini öyrənmək üçün Avropa Şurası, DST və BQXK-nin xətti ilə 18 tanışlıq səfəri təşkil olunub. Ümumilikdə isə son illər 20 dövlətdən 200-dən çox nümayəndə Bakıda səfərdə olub və müsbət təcrübəmizdən bəhrələniblər. Artıq bəzi ölkələrdə bizim təcrübəyə uyğun modellərin tətbiqinə başlanılıb.

Ətraflı məlumata görə minnətdarlığını bildirən DST-nin baş direktoru T.A.Qebreyesus respublikamızın vərəmlə mübarizədə qazandığı yüksək nailiyyətlərdən heyranlığını ifadə edib, bu münasibətlə Azərbaycan tərəfini təbrik edərək bu müsbət nəticələrə nail olunmasında dövlətimizin güclü siyasi iradəsini vurğulayıb.

Qonaq, həmçinin ölkəmizin bu sahədə beynəlxalq təşkilatlarla, o cümlədən DST ilə səmərəli əməkdaşlığını təqdir edib, vərəmlə mübarizədə Azərbaycanın tətbiq etdiyi standartların ən yaxşı təcrübə təşkil etdiyini, bunun üçün respublikamızın müsbət təcrübəsinin dünyada daha geniş yayılmasının önəmini vurğulayıb. O, gələcəkdə təlim mərkəzinə hərtərəfli kömək göstərəcəyini və əlaqələrimizin genişləndirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.

DST-nin baş direktoru Mərkəzlə tanışlıqdan xoş təəssüratla ayrılıb.

Tədbirdə Azərbaycanın Cenevrədəki BMT bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, səfir Vaqif Sadıqov iştirak edib.

**AZƏRTAC**

## Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri iyulun 11-də Brüsseldə görüşəcəklər

İyulun 11-də Brüsseldə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın ATƏT-in Minsk qrupunun həmsədrlərinin (İqor Popov - Rusiya, Stefan Viskonti - Fransa və Endrü Sxofer - ABŞ) vasitəçiliyi ilə görüşü keçiriləcək.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak edəcək.

Görüş əsnasında Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunacaq.

**AZƏRTAC**

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində kollegiya iclası keçirilib

İyulun 9-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində 2018-ci ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib.

Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, sədr Hicran Hüseynova ötən yarım ildə ölkə həyatında baş vermiş bir neçə mühüm hadisələri nəzərdən keçirib. Bildirib ki, 2018-ci il ölkəmiz üçün çox əlamətdar hadisələrlə başlayıb.

Hicran Hüseynova deyib ki, müstəqil Azərbaycan Respublikası nəinki regionun, dünyanın lider ölkələri sırasındadır. Hazırda demək olar ki, əksər regional və ya beynəlxalq layihələr Azərbaycanın iştirakı olmadan reallaşmır. Hətta elə vacib görüş və tədbirlər var ki, onların keçirilməsi üçün məhz Azərbaycan seçilir. Dünyanın müxtəlif yerlərində dövlətlərin bir-birinə qarşı düşmənçiliyini, etnik təmizləmələri, terror aktlarını, dini, milli, irqi ayrı-seçkiliyi müşahidə edirik. Bütün bunların fonunda Azərbaycanda insanlar təhlükəsizlik, tolerantlıq və mehribançılıq şəraitində yaşayırlar. Əlbəttə ki, hər bir inkişafın nüvəsini sabitlik təşkil edir. Biz bu sabitliyə təkcə mənsub olduğumuz mədəni keyfiyyətlərlə, qonaqpərvərliyimizlə, gözəl təbiətimizlə deyil, həm də dövlətimizin başçısının yürütdüyü düşünülmüş siyasət nəticəsində nail olmuşuq.

Komitə sədri qeyd edib ki, aprelin 11-də növbədənkənar prezident seçkilərində partiyamızın Sədri, dövlətimizin başçısı İlham Əliyev növbəti dəfə xalqın etimadını qazandı. Prezident İlham Əliyev ötən müddət ərzində öz fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu dəfələrlə sübuta yetirib. Prezident İlham Əliyevin uğurlu dövlət idarəçiliyi, onun rəhbərliyi ilə aparılan sistemli islahatlar, bölgələrin inkişafına yönəldilən sosial-iqtisadi proqramlar, qeyri-neft sahələrinin, o cümlədən kənd təsərrüfatının inkişafı ailələrin, qadın və uşaqların yaşayışına müsbət təsir göstərir. H.Hüseynovanın sözlərinə görə, təkcə iki beynəlxalq layihənin adını çəkmək kifayətdir ki, dövlətimizin nə qədər güclü olduğunu görək. Cənub Qaz Dəhlizinin rəsmi açılışının keçirilməsi, eləcə də TANAP-ın istismara verilməsi təkcə Azərbaycan üçün deyil, qonşu və dost ölkələr üçün gözəl imkanlar yaradır. Həmin layihələr bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. Bütün bu və digər amillər güclü iqtisadiyyatın yaranmasına imkan verir. Bu isə Azərbaycanda istənilən sosial layihənin, infrastruktur layihələrinin həyata keçirilməsinə əsas verir. Prezident İlham Əliyev həmişə qeyd edir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Biz Prezidentin fəaliyyətində bunun əyani təsdiqini görürük. Bu ilin ilk altı ayında həyata keçirilən sosial layihələr, bir sıra sosial obyektlərin, texno-parkların açılışı, təməlqoyma mərasimləri buna əyani sübutdur. Bu uğurların bünövrəsini Azərbaycanın ümummilli lideri Heydər Əliyev qoyub. Ulu Öndər Azərbaycanın inkişaf konsepsiyasının müəllifidir. Bu gün Azərbaycanın uğurlu inkişafı məhz bu konsepsiyanın icrası nəticəsində mümkün olub.

H.Hüseynova, həmçinin bildirib ki, bir neçə gün öncə erməni terrorunun qurbanı olan 2 yaşlı Zəhranın və onun nənəsinin ildönümü idi. Əlbəttə, bu erməni vandalizmidir. Lakin biz ruhdan düşmürük, Ordumuzun bir-birinin ardınca həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar düşməni qorxuya salıb. Hərbi sənayenin inkişafı, Ordumuzun gündən-günə güclənməsi, erməni işğalçılarından azad edilmiş Cocuq Mərcanlının və ona bitişik ərazilərin yenidən qurulması insanlarda torpaqlarımızın azad edilməsi inamını daha da artırır.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən daha da gücləndirilən siyasət nəticəsində bu gün ölkəmiz Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi kimi demokratik dövlət quruculuğu proseslərini sürətlə həyata keçirir və inkişaf etdirir. Bunun bariz nümunəsi olaraq, dövlətimizin başçısı İlham Əliyevin 2018-ci ilin ölkədə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə bağlı Sərəncamını göstərmək olar. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə yanaşı, qadınlara seçmək və seçilmək hüququnun verilməsinin də 100 illiyi qeyd edilir. Azərbaycan müsəlman Şərqində qadına seçmək və seçilmək hüququ verən ilk ölkədir. 100 il əvvəl belə bir hüquq əldə etməklə biz bir sıra qabaqcıl Avropa ölkələri ilə eyni sırada dayanırıq. H.Hüseynova Komitə tərəfindən də bu əlamətdar hadisə ilə bağlı Gəncədə konfrans keçirildiyini və silsilə tədbirlərə start verildiyini vurğulayaraq deyib ki, bu tədbirlərə Qadınların V Forumu ilə yekun vurduq. Forumun yeni formatda keçirilməsi, beynəlxalq statusa malik olması çox bəyənildi. Əlbəttə ki, dövlətimizin başçısının və eləcə də respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi diqqəti və dəstəyi olmadan belə bir nüfuzlu tədbiri keçirmək qeyri-mümkün idi. Onların Foruma təbrik məktubları, həm də qadınların qarşısında bir çox hədəflər qoyub. İnanıram ki, biz bu hədəflərə nail olacağıq.

Ölkəmiz yaxın qonşuluq və ikitərəfli əməkdaşlıq prinsiplərinə hər zaman xüsusi diqqət yetirir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də bu siyasətin tərkib hissəsi olaraq, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində təcrübənin artırılması, ölkəmizin əldə etdikləri uğurların təbliğ olunması istiqamətində işlər görür. H.Hüseynova qeyd edib ki, yarım il ərzində Komitənin rəhbər vəzifəli şəxsləri və eləcə də əməkdaşları mühüm xarici səfərlər edib. O, bu səfərlər haqqında məlumat verərək qeyd edib ki, artıq Azərbaycan təcrübəsi böyük maraqla qarşılanır və bir çox ölkələr mübadilə üçün bizə müraciət edirlər.

Komitə sədri qeyd edib ki, bütün bunlar dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən genişmiqyaslı işlərin sadəcə bir hissəsidir. Biz bu yolda yorulmadan çalışacağıq ki, daha gözəl nəticələr əldə edək.

Sonra sədr müavinləri Sədaqət Qəhrəmanova Dövlət Komitəsinin 2018-ci ilin birinci yarısında iş planının icra vəziyyəti, Aynur Sofiyeva isə 2018-ci ilin ikinci yarısı üçün iş planı haqqında məlumat veriblər.

Dövlət Komitəsi Aparatının rəhbəri Ceyran Rəhmətullayeva isə "İcra intizamının möhkəmləndirilməsi və icraya nəzarətin təşkilinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 26 oktyabr tarixli 472 nömrəli Fərmanının icra vəziyyətinin yoxlanılması ilə əlaqədar Komitədə keçirilmiş xidməti yoxlamanın nəticələri barədə məruzə edib.

Komitənin hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Aparatının Yeni Əsasnaməsinin layihəsinin hazırlanması barədə məlumat verib.

Kollegiya iclasında Komitənin nəzdindəki uşaq və ailələrə dəstək mərkəzlərinin işi geniş təhlil olunub, onların fəaliyyətinin daha da gücləndirilməsi ilə bağlı tövsiyələr verilib.

Naxçıvan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova da iclasda iştirak edib.

Kollegiya iclasının iştirakçıları qaldırılan məsələləri ətraflı müzakirə etdikdən sonra Komitənin 2018-ci ilin birinci yarısındakı fəaliyyətini müsbət qiymətləndiriblər.

Sonda Hicran Hüseynova iclasa yekun vuraraq görüləcək işlərlə bağlı öz tövsiyə və göstərişlərini verib.

**AZƏRTAC**

# Xarici İşlər Nazirliyinin kollektivi ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycan Respublikasının diplomatik xidmətinin yaradılmasından 99 il keçir. 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi Katibliyinin yaradılmasına dair qərarın qəbul edilməsi dövlətimizin peşəkar diplomatik xidmətinin başlanğıcı hesab olunur. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə böyük önəm verən ulu öndər Heydər Əliyev diplomatiyamızın sağlam əsaslara söykənməsinə daim diqqət və qayğı göstərib.**

Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin 2007-ci il 24 avqust tarixli Fərmanı ilə 9 iyul Azərbaycan diplomatlarının peşə bayramı günü elan edilib. Bu, dövlətimizin başçısının Azərbaycan diplomatiyasına və diplomatlarına diqqət və qayğısının bariz nümunəsidir.

AZƏRTAC xəbər verir ki, diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı münasibətilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollektivi iyulun 9-da Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.



Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra nazirliyin kollektivi Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

**AZƏRTAC**

# Xarici İşlər Nazirliyində diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı münasibətilə iclas keçirilib

**İyulun 9-da diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı münasibətilə xarici işlər naziri Elmar Məmmədyarovun sədrliyi ilə nazir müavinləri, kollegiya üzvləri, xüsusi tapşırıqlar üzrə səfirlər, nazirliyin idarə və struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə geniş tərkibli iclas keçirilib.**

XİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov peşə bayramı münasibətilə nazirliyin kollektivini, o cümlədən xarici ölkələrdəki diplomatik nümayəndəliklərin əməkdaşlarını təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

O, dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizin milli maraqlarına xidmət edən xarici siyasət kursunun tarazlaşdırılmış və çoxistiqa-



mətli əsaslarla davam etdiyini qeyd edib. Nazir Prezident İlham Əliyevin daim Xarici İşlər Nazirliyinə göstərdiyi diqqət və qayğıdan danışıb, Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası zamanı dövlətimizin başçısının ölkəmizin xarici siyasətinə yüksək qiymət verdiyini diqqətə çatdırıb.

Geniş tərkibli iclasda iyulun 8-də XİN kollektivinin, o cümlədən gənc qadın əməkdaşların qoşunların təmas xəttinə səfəri, peşə bayramını ön xətdə xidmət çəkən əsgər və zabitlərlə birlikdə qeyd etmələri, təmas xəttinə ən yaxın yaşayış məntəqələrindən biri kimi Tərtərin Qapanlı kəndinə getmələri, məcburi köçkünlər üçün yeni salınmış Şıxarx qəsəbəsi və ermənilərin Qarabağa köçürülməsinin 200 iliyi ilə əlaqədar tikilmiş və sonradan ermənilər tərəfindən dağıdılmış "Marağa 150" abidəsinin qalıqları ilə yerində tanış olmaları xüsusi vurğulanıb.

İclasda gündəlikdə duran prioritet tapşırıq və vəzifələr, regiondakı vəziyyət, 2019-cu ildə qeyd ediləcək Xarici İşlər Nazirliyinin yaradılmasının 100 illiyi ilə əlaqədar tədbirlər planının hazırlanması, 2019-2022-ci illərdə Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına sədrliyi və 2019-cu ildə Qoşulmama Hərəkatı Zirvə toplantısının Azərbaycanda keçirilməsi məsələləri müzakirə olunub. Xarici İşlər Nazirliyinin yaradılmasının 100 illiyi ilə əlaqədar tədbirlərin hazırlanması və həyata keçirilməsi ilə bağlı nazir Elmar Məmmədyarovun rəhbərliyi altında təşkilat komitəsi yaradılıb.

Geniş tərkibli iclasa yekun vuran nazir Elmar Məmmədyarov müzakirə olunan məsələlər üzrə təlimatlarını verib.

**AZƏRTAC**

# XİN əməkdaşları peşə bayramları günü münasibətilə Tərtərə səfər ediblər

**9 iyul Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə Xarici İşlər Nazirliyinin (XİN) 50 nəfərə yaxın əməkdaşı qoşunların təmas xəttindəki vəziyyət, ön xətdə xidmət edən əsgər və zabitlər, habelə həmin əraziyə yaxın yaşayan yerli sakinlərin gündəlik həyat şəraiti ilə yerində yaxından tanış olmaq üçün Tərtər rayonuna səfər ediblər. XİN əməkdaşlarının cəbhənin Tərtər istiqamətinə səfəri Ağdərə və ətraf kəndlərin ermənilər tərəfindən işğal olunmasının 25-ci ildönümünə təsadüf edir.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfər çərçivəsində XİN əməkdaşları əvvəlcə Şıxarx qəsəbəsində 1170 məcburi köçkün ailəsi üçün yeni salınmış hündürmərtəbəli yaşayış kompleksi və orada yaradılmış şəraitlə tanış olublar.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov məlumat verib ki, yaşayış kompleksi



hər biri 4 mərtəbəli olmaqla, 34 yaşayış binası, 1200 şagird yerlik məktəb, 280 yerlik uşaq bağçası, musiqi məktəbi, həkim məntəqəsi, inzibati bina, klub icma mərkəzi, Avtomat Telefon Stansiyası inşa edilib. Binalardakı mənzillərin 120-si bir, 504-ü iki, 472-si üç, 80-ni dördotaqlıdır. Bütün infrastruktura malik kompleksdə məcburi köçkünlərin yaşayışı üçün hər cür şərait yaradılıb.

XİN əməkdaşları sonra ermənilərin Azərbaycana qarşı ərazi iddialarını ifşa edən "Marağa-150" abidəsinə baş çəkiblər. Məlumat verilib ki, Ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə köçürülməsini sübut edən tarixi mənbələrdən biri olan "Marağa-150" abidəsi 1978-ci ildə ermənilərin özləri tərəfindən İran Marağasından Qarabağa köçürülmələrinin 150 illiyi ilə əlaqədar inşa edilib. XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları başlayanda "Marağa-150" abidəsi ermənilər tərəfindən qəsdən dağıdılıb. Çünki bu abidə ermənilərin əzəli Azərbaycan torpağı olan Qarabağa köçürülməsinin sübutu idi. Lakin mənfur düşmənlərimizin ərazi iddialarına tutarlı cavab olan bu abidənin tarixi-siyasi əhəmiyyəti nəzərə alınaraq, Prezidentin tapşırığı ilə o, yenidən bərpa olunub. Ermənilərin Qarabağa köçürülmələrini sübut edən, həmçinin "Marağa-150" abidəsi ilə bağlı tarixi sənəd, məlumat və fotolar arxivlərdən toplanaraq, Azərbaycan, rus və ingilis dillərində stendlər qurulub.

Tərtər rayonunun təmas xəttində yerləşən Qapanlı kəndinə gələn XİN əməkdaşları 2016-cı ilin aprel hadisələri zamanı ciddi dağıntıya məruz qalmış və dövlət başçısının Sərəncamı ilə yenidən tikilərək sakinlərin istifadəsinə verilmiş evlərdə olub, sakinlərlə görüşüblər.

Səfər çərçivəsində XİN əməkdaşları ön xəttə də gedib, əməliyyat şəraiti ilə tanış olub və xidmət göstərən əsgərlərlə söhbət ediblər. Müdafiə nazirliyinin ərazidə yerləşən N saylı hərbi hissəsinə baş çəkən qonaqlar hərbi qulluqçuların xidmət və məişət şəraiti ilə tanış olub, əsgərlərlə birlikdə nahar ediblər.

Səfər əsnasında əldə edilən əyani məlumatlar diplomatlarımız tərəfindən gələcək fəaliyyətlərində istifadə olunacaqdır.

**AZƏRTAC**

*Yohan N.Şnayder-Ammann:*

# "Azərbaycanda özümüzü evinmizdəki kimi hiss edirik"





**Azərbaycanda səfərdə olan İsveçrə Konfederasiyasının Federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammannın rəhbərlik etdiyi nümayəndə heyəti Sumqayıt Kimya Sənaye Parkının ərazisində tikilən İsveçrə investisiyalı inşaat kimyəviləri zavodu ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, bununla bağlı Sumqayıt Kimya Sənaye Parkında keçirilmiş tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, Azərbaycanda dövlət başçısının rəhbərliyi ilə ardıcıl islahatlar, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması tədbirləri həyata keçirilir. İndiyədək Azərbaycan iqtisadiyyatına 250 milyard ABŞ dolları yatırıldığını diqqətə çatdıran iqtisadiyyat naziri bunun yarısını xarici investisiyaların təşkil etdiyini vurğulayıb. Nazir qeyd edib ki, Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühiti beynəlxalq hesabatlarda da əksini tapır. Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2018" hesabatında Azərbaycan 57-ci yerə yüksəlib. Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan reytinqdə daha iki pillə yüksələrək 35-ci yerdə qərarlaşıb.

Sumqayıt Kimya Sənaye Parkının ərazisində tikilən inşaat kimyəviləri zavodunun inşası də ölkəmizin əlverişli biznes və investisiya mühitinin bir nümunəsidir.

Nazir qeyd edib ki, 5 il öncə burada köhnə zavodlar var idi. 500 hektara yaxın ərazi təhlükəli tullantılardan təmizlənməklə dövlət vəsaiti hesabına infrastruktur yaradıldı və Sumqayıt Kimya Sənaye Parkına rezidentlər cəlb edilməsinə başlandı. Hazırda Sənaye Parkının 17 rezidentı var, 7 müəssisə artıq fəaliyyət göstərir, daha 7 müəssisə isə bu ilin sonunadək fəaliyyətə başlayacaq.

Sumqayıt Kimya Sənaye Parkının rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, həmçinin idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV-dən və gömrük rüsumundan azaddır. Bütün bunlar isə investisiya layihələrini daha səmərəli edir.

İqtisadiyyat naziri vurğulayıb ki, Azərbaycanda siyasi, iqtisadi-maliyyə sabitliyinin nəticəsi olaraq xarici investorların ölkəmizə marağı artır. Bütün bunlar isə Azərbaycanda müasir müəssisələrin yaradılmasına geniş imkanlar açır. Sumqayıt Kimya Sənaye Parkının ərazisində İsveçrə kapitalı ilə tikilən inşaat kimyəviləri zavodu da Azərbaycandakı əlverişli biznes və investisiya mühitinin bir nümunəsidir.

Zavoda 3,5 milyon dollar sərmayə qoyulub. Bunun əsasında 60 iş yeri yaradılıb. Müəssisədə istehsal olunan məhsullar daxili bazarı təmin etməklə yanaşı, xarici ölkələrə də ixrac olunacaq.

Azərbaycanda səfərdə olan İsveçrə Konfederasiyasının Federal müşaviri, İqtisadi Məsələlər, Təhsil və Tədqiqatlar üzrə Federal Departamentin rəhbəri Yohan N.Şnayder-Ammann diqqətə çatdırıb ki, SİKA şirkəti 2005-ci ildən Azərbaycanda fəaliyyət göstərir. İstehsal sahəsinin yaradılması isə xüsusilə önəmlidir: "Azərbaycanda özümüzü evimizdəki kimi hiss edirik. Burada çox maraqlı gün yaşadıq. Fəxrlə qeyd edirəm ki, Azərbaycan iqtisadiyyatının diversifikasiyasında iştirak edirik". Federal müşavir investorlar üçün yaradılan əlverişli şəraitə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib. Müəssisənin fəaliyyəti ilə Azərbaycanın analoji məhsullara olan tələbatı ödəniləcək və idxaldan asılılıq azalacaq.

Sonra SİKA şirkətinin fəaliyyəti barədə videoçarx nümayış olunub və təqdimat keçirilib.

İsveçrə nümayəndə heyəti Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" müəssisəsində də olub.

**AZƏRTAC**

# ATƏT PA-nın "İpək yoluna dəstək qrupu"nun iclasında mühüm qərarlar qəbul edilib

**İyulun 8-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (ATƏT PA) 27-ci illik sessiyası çərçivəsində "İpək yoluna dəstək qrupu"nun (Silk Road Support Group - SRSP) iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, bu qrupda sədrlik edən, ATƏT PA-nın vitse-prezidenti, Milli Məclisin deputatı Azay Quliyev giriş nitqində toplaşanları qrupun yaradılmasının bir ilinin tamam olması münasibətilə təbik edib. "Bir il əvvəl Minskdə 17 dövlətdən olan deputatlar "İpək yoluna dəstək qrupu"nu yaratdı, bu gün isə sayımız 22-dir", - deyə məmnunluqla bildirən Azay Quliyev məlumat verib ki, gündəlikdə, həmçinin 23-cü namizədin - Fransanın SRSP-ə qəbul edilməsi əri-



zəsinə baxılması dayanır.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) baş katibi Asəf Hacıyev iştirakçılara QDİƏT PA-ya ATƏT PA-da müşahidəçi statusu verildiyini bildirib. O, Böyük İpək yolunun bərpasında Qara dəniz iqtisadi regionunun və əksinə, bu marşrutun Qara dəniz regionunun gələcək iqtisadi inkişafında mühüm rolunu vurğulayıb.

Qrup təşkilati məsələlərə baxaraq, Fransanı öz sıralarına qəbul edib, habelə iki sədr müavini seçib - bunlar Avstriya deputatı Roman Hayder və ATƏT PA-nın birinci komitəsinin sədri, İsveçrədən olan deputat Filippo Lombardidir.

Çıxış edənlər İpək yolunun təkcə coğrafi baxımdan əhatə etdiyi dövlətlər arasında iqtisadi əlaqələrin inkişafında deyil, həm də bütün ATƏT məkanında sülh və etimadın möhkəmlənməsində əvəzolunmaz əhəmiyyətini qeyd ediblər. "Bu, sadəcə dəmir yolu, sadəcə konteynerlər və yüklər deyildir, ATƏT-in əsasını təşkil edən məqsədləri - sülhü və təhlükəsizliyi möhkəmləndirən amildir", - deyə ATƏT PA-nın prezidenti Georgi Sereteli bildirib.

İştirakçılar qrupun sədrinin bu təşkilatın fəaliyyəti barədə məruzəsini dinləyib və bəyəniblər.

ATƏT PA-da Belarus nümayəndə heyətinin rəhbəri Boleslav Pirştuk SRSP-nin növbəti konfransının 2019-cu ilin yazında Minskdə keçiriləcəyini elan edib. Minskdən sonrakı deputat qrupunun növbəti konfransına İsveçrə ev sahibliyi edəcək.

**AZƏRTAC**

# ATƏT PA sessiyasında azərbaycanlı deputat kibertəhlükəsizlik sahəsində təhdidlər mövcud olduğunu göstərib




**Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (ATƏT PA) sessiyasında çıxış edən deputat Tahir Mirkişili kibertəhlükəsizlik sahəsində, xüsusən transmilli korporasiyalar tərəfindən milyonlarla istifadəçinin şəxsi məlumatlarının qeyri-qanuni şəkildə toplanması ilə əlaqədar təhdidlər mövcud olduğuna diqqəti cəlb edib və həmkarlarını bu məsələni diqqət mərkəzində saxlamağa çağırıb.**

Deputat kiprli məruzəçi Kiriakos Kiriaku Haciyanni tərəfindən təqdim olunmuş "ATƏT çərçivəsində öhdəliklərin yerinə yetirilməsi: parlamentlərin rolu" adlı məruzədə ifadə edilmiş ATƏT PA çərçivəsində xüsusi komitə və ya altkomitə yaradılması barədə təklifi də dəstəkləyib.

**AZƏRTAC**

# ATƏT PA-nın sessiyasında Dağlıq Qarabağın Ermənistanın işğalı altında olması məsələsi qaldırılıb

Berlində Reyxstaqın binasında (Almaniya Bundestaqının iqamətgahında) Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (ATƏT PA) 27-ci illik sessiyasının plenar iclasında ATƏT PA-nın vitse-prezidenti, Azərbaycan Milli Məclisinin deputatı Azay Quliyev dondurulmuş münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həllində ATƏT-in Minsk qrupunun qeyri-effektivliyi məsələsini qaldırıb. Deputat ATƏT-in üzv dövlətlərin ərazi bütövlüyünü qeyd-şərtsiz dəstəkləməsinin zəruriliyini və bir dövlətin ərazisinin digər dövlət tərəfindən işğal edilməsi faktının qəti surətdə qəbuledilməz olduğunu qeyd edib. ATƏT-in vitse-prezidenti bu kontekstdə ikili standartların tətbiqinin yolverilməz olduğunu vurğulayıb. O, Minsk konfransının çağırılmasını zəruri hesab edərək bildirib ki, orada münaqişə Minsk qrupunun cəhd göstərdiyindən daha qısa vaxtda öz həllini tapa bilər. ATƏT-də İtaliya sədrliyini təmsil edən xarici işlər nazirinin müavini Quqlielmo Pikki Azərbaycan nümayəndəsinin sualına cavab verərkən deyib ki, həlli indiyədək uzadılan münaqişələrin tənzimlənməsində tərəqqiyə nail olmaq üçün İtaliya sədr-dövlət kimi malik olduğu bütün imkan və mexanizmləri işə salmağa hazırdır. O, məlumat verib ki, azərbaycanlı həmkarının danışıqlar prosesini irəlilətmək məqsədilə Minsk konfransını çağırmaq barədə təklifi də nəzərə alınıb.

**AZƏRTAC**

# AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

## Azərbaycan Respublikası Mülki Məcəlləsinin 477.0.1-ci maddəsinin həmin Məcəllənin 470.2-ci maddəsi və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.8 və 10.5-ci maddələri, eləcə də Azərbaycan Respublikası Mülki Məcəlləsinin 269.11 və 307.4-cü maddələrinin “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 3.2 və 10.5-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun

# QƏRARI

**31 may 2018-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elşən Kazımov və İkram Şirinov, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Məzahir Sadıqov, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin sektor müdiri Nadir Sultanov və həmin şöbənin böyük məsləhətçisi Fərid Hacıyevin,

ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Azad Talıbov və Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Natiq Əsgərovun,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının hakimi İlqar Dəmirov, Azərbaycan Respublikası Mərkəzi Bankının Hüquq departamentinin Korporativ hüquq şöbəsinin böyük hüquq məsləhətçisi Rasim Məmmədov, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Hüquq və icraat departamentinin hüquqşünası Rüfət Məmmədxanlı, Azərbaycan Banklar Assosiasiyası ekspert qrupunun sədri, vəkil Qorxmaz Ağayev və PraysvoterhausCopers Azərbaycan Hüquq və Vergi xidmətlərinin Baş hüquq meneceri Emin Kərimovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 477.0.1-ci maddəsinin həmin Məcəllənin 470.2-ci maddəsi və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.8 və 10.5-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin, eləcə də Azərbaycan Respublikası Mülki Məcəlləsinin 269.11 və 307.4-cü maddələrinin “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 3.2 və 10.5-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair Bakı şəhəri Nizami Rayon Məhkəməsinin müraciətləri əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakimlər K.Şəfiyev və S.Həsənovanın məruzələrini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspert rəylərini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə) 477.0.1-ci maddəsində nəzərdə tutulan “zaminin razılığı olmadan həmin öhdəlik dəyişdirildikdə və bu dəyişdirilmə onun məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olduqda zaminliyə xitam verilir” müddəasının; “kredit xətti müqavilələri” adı ilə bağlanan müqavilələrin “bu müqavilə bankın kredit vermək vədini ifadə etmir” qeydinin kreditor üçün kreditin verilməsi üzrə öhdəlik və ya məsuliyyət yaratmadığı halda, bunlara görə bağlanan zaminlik və ipoteka müqavilələrinin öhdəliyi təmin edən müqavilə kimi qiymətləndirilməsinin mümkünlüyü baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, Bank VTB (Azərbaycan) ASC iddia ərizəsi ilə Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinə müraciət edərək 15 noyabr 2013-cü il tarixli kommersiya krediti müqaviləsi üzrə 13.692,67 ABŞ dolları borcun Vahid Əmiraslanovdan, zaminlər Nadir Əliyev və Zaur Əliyevdən müştərək qaydada tutularaq iddiaçıya ödənilməsi, 14 noyabr 2013-cü il tarixli baş kredit razılaşması və 15 noyabr 2013-cü il tarixli kommersiya krediti müqaviləsinin ləğv olunması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir. N.Əliyev və Z.Əliyev Bank VTB (Azərbaycan) ASC-yə qarşı zaminliyə xitam verilməsi ilə bağlı qarşılıqlı iddia ərizəsi ilə həmin məhkəməyə müraciət edərək, onlara münasibətdə iddianın rədd olunmasını xahiş etmişlər.

Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 1 dekabr 2016-cı il tarixli qətnaməsi ilə ilk iddia qismən təmin edilmişdir. Qarşılıqlı iddia təmin edilərək N.Əliyev və Z.Əliyev ilə Bank VTB (Azərbaycan) ASC arasında 14 noyabr 2013-cü il tarixində bağlanmış zaminlik müqavilələrindən irəli gələn öhdəliklərə xitam verilmişdir.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 17 aprel 2017-ci il tarixli qətnaməsi ilə birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır. Apellyasiya instansiyası məhkəməsi qətnaməsini onunla əsaslandırmışdır ki, baş kredit razılaşmasına görə bağlanmış zaminlik müqaviləsi sonradan bağlanmış kommersiya krediti müqaviləsinin təminatı ola bilməz. Belə ki, kreditorun borcalanla bağladığı kommersiya krediti müqaviləsinə və həmin müqaviləyə dəyişiklik və əlavələr edilməsi barədə razılaşmaya dair zaminlər ilə heç bir müqavilə bağlanılmamışdır. Zaminlərin kommersiya krediti müqaviləsi üzrə öhdəliyi üzərlərinə götürmələrinə dair digər formada razılığı alınmadığından və həmin müqavilə üzrə onların öhdəliyi yaranmadığından bu öhdəliyə görə borc məbləği tələb oluna bilməz.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 21 sentyabr 2017-ci il tarixli qərarı ilə kassasiya şikayəti təmin edilmiş, Bakı Apellyasiya Məhkəməsinin qətnaməsi ləğv edilmiş və iş yenidən baxılması üçün həmin məhkəməyə qaytarılmışdır. Kassasiya instansiyası məhkəməsinin qərarında qeyd edilmişdir ki, hər iki zamin V.Əmiraslanovun öhdəliklərinin icrasını təmin etmək məqsədi ilə cavabdehlik daşımağı öhdələrinə götürmüşlər. Kommersiya krediti müqaviləsinin müddətinin dəyişdirilməsi baş kredit razılaşmasında müəyyən olunmuş müddət əsasında artırılmış, bu isə zaminin məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrin yaranmasına səbəb ola bilməz.

İşə yenidən baxan Bakı Apellyasiya Məhkəməsi Mülki Məcəllənin və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra - “İpoteka haqqında” Qanun) zaminliyə və ipotekaya dair müvafiq normalarının tətbiqi ilə bağlı məhkəmələrdə müxtəlif yanaşmaların olmasını və bunun vahid məhkəmə təcrübəsinin formalaşmasına maneələr yaratmasını nəzərə alaraq həmin normaların rəsmi şərh edilməsinin zəruri olduğu qənaətinə gəlmişdir.

Eyni zamanda, Bakı şəhəri Nizami Rayon Məhkəməsi Konstitusiya Məhkəməsinə müraciət edərək icraatında olan mülki iş üzrə tətbiq edilməli olan Mülki Məcəllənin 269.11 və 307.4-cü maddələrinin “İpoteka haqqında” Qanunun 3.2 və 10.5-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Müraciətlərdə Mülki Məcəllənin 269.11-ci maddəsinin “girov və ipoteka hüququ həm mövcud, həm də gələcək tələb üçün verilə bilər”, həmin Məcəllənin 307.4-cü maddəsinin “əgər ipoteka ilə təmin edilmiş öhdəliyin məbləği gələcəkdə müəyyənləşdirilməlidirsə, ipoteka müqaviləsində onun müəyyənləşdirilməsinin qaydası və digər zəruri şərtləri göstərilməlidir” müddəaları, eləcə də “İpoteka haqqında” Qanunun 3.2-ci maddəsinin “Gələcəkdə ortaya çıxa biləcək tələblərin icrası üçün də ipoteka qoyula bilər. Bu halda bu Qanunun 10.5-ci maddəsində nəzərdə tutulan şərtlərə əməl edilməlidir” və Qanunun 10.5-ci maddəsinin “əgər əsas öhdəliyin məbləği gələcəkdə müəyyənləşdirilməlidirsə ipoteka müqaviləsində həmin məbləği müəyyən etmə qaydası göstərilməlidir” müddəalarının, kredit xətti müqaviləsinin bankın kredit alana gələcəkdə kredit vermək vədini ifadə edib- etməməsi, kredit alanın bank qarşısında hər hansı öhdəliyinin yaranıb-yaranmaması baxımından şərh olunması xahiş edilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiya Məhkəməsi Daxili Nizamnaməsinin 17-ci maddəsinin I hissəsini rəhbər tutaraq, müraciətlər eyni predmetə aid olduğundan onları bir icraatda birləşdirmək qərarına gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu qanunvericiliyin müvafiq normalarının müraciətlərdə qaldırılan məsələlərin ardıcıllığı qaydasında təhlil edilməsini və ilk növbədə, kredit xətti müqaviləsinin mahiyyətinə aydınlıq gətirilməsini zəruri hesab edir.

Bir çox ölkələrdə geniş tətbiq olunan kreditləşmə növlərindən biri də kredit xətləridir (limitləridir). Belə müqavilələr ayrı-ayrı ölkələrdə “baş kredit razılaşması”, “kredit xətti müqaviləsi”, “çərçivə müqaviləsi”, “ümumi şərtlər müqaviləsi”, “açıq şərtlərlə razılaşma” və s. kimi tanınır.

Rusiya Federasiyasının mülki hüququnda belə müqavilələr “çərçivə müqaviləsi”, “baş razılaşma”, “açıq şərtlərlə razılaşma” adlandırılır.

Almaniya mülki qanunvericiliyinə əsasən, çərçivə sazişinə uyğun olaraq bağlanan müqavilələr kredit xətti müqaviləsinin (çərçivə müqaviləsinin) şərtlərinə uyğun olmalıdır.

Belə kreditləşmə modeli Azərbaycan Respublikasında da tətbiq edilir. “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli Fərmanının 3 nömrəli əlavəsində nəzərdə tutulmuş “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası”nın 2.1.8-ci yarımbəndində kredit xəttinə kredit müqaviləsinə uyğun olaraq tam və ya qismən istifadə edilə bilən, faiz dərəcəsi kredit xəttinin yalnız istifadə olunmuş hissəsinə hesablanan və yuxarı həddi müəyyənləşdirilmiş bank krediti kimi anlayış verilmişdir. Həmçinin Azərbaycan Respublikası Mərkəzi Bankının 2013-cü il 11 mart tarixli Qərarı ilə təsdiq edilmiş “Mərkəzləşdirilmiş Kredit Reyestrinin aparılması və istifadəsi Qaydaları”nın 1.3.1-ci yarımbəndində açılmış kredit xətləri kredit anlayışının tərkibinə daxil edilmişdir.

Kredit xətti müqavilələri bank müştərilərinin rahatlığını, maliyyə xidmətlərinə çıxış imkanlarını sadələşdirmək məqsədi daşıyır. Bu cür müqavilələrə görə, bank müştərinin müraciətinə əsasən tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş qaydada onun kredit müraciəti üzrə tədbir görməyi öhdəsinə götürür. Kredit xətti müqaviləsinin məqsədi tərəflərin gələcək mülki (iqtisadi) münasibətlərinin təşkilidir. Kredit xətti müqaviləsində tərəflər gələcəkdə bağlanacaq müqavilələrin əsas şərtlərini aydın müəyyən etməlidirlər. Təcrübədə belə şərtlər kredit xətti müqaviləsində, onun tərkib hissəsi olan kredit razılaşmasında və ödəniş planında müəyyən olunur. Kredit xətti müqaviləsinin tətbiqi beynəlxalq təcrübədən irəli gəlməklə bank sektorunda müştərilərin maliyyə resurslarına effektiv çıxış imkanlarının yaradılması məqsədi daşıyır. Kredit xəttinin açılması nəticəsində müştəri daha qısa zamanda bankdan kredit ala bilir, həmçinin müqavilədən irəli gələn faiz öhdəliyi müştəri tərəfindən kredit götürüldükdən sonra və istifadə olunmuş məbləğə münasibətdə əmələ gəlir.

Kredit xətti müqavilələrinin hüquqi nəticələr və tərəflər arasında öhdəlik yaradıb-yaratmaması məsələlərinə aydınlıq gətirilməsi üçün Konstitusiya Məhkəməsinin Plenumu mülki qanunvericiliyin əqd, öhdəlik və müqavilə barədə normalarının əlaqəli şəkildə təhlil edilməsini zəruri hesab edir.

Əqd mülki hüquq münasibətlərinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir. Bu Məcəlləyə və ya tərəflərin razılaşmasına uyğun olaraq bağlanması üçün bir tərəfin iradə ifadəsinin zəruri və yetərli olduğu əqd birtərəfli əqddir. Müqavilənin bağlanması üçün iki tərəfin razılaşdırılmış iradə ifadəsi (ikitərəfli əqd) və ya üç və ya daha çox tərəfin razılaşdırılmış iradə ifadəsi (çoxtərəfli əqd) zəruridir (Mülki Məcəllənin 324.1, 324.3 və 324.4-cü maddələri).

Mülki hüquq münasibətlərinin əhatəli və aparıcı sahələrindən biri öhdəlik hüququdur. Öhdəlik isə iqtisadi dövriyyə iştirakçılarının öhdəlik hüququ normaları ilə tənzimlənən qarşılıqlı əlaqələridir.

Mülki Məcəllənin 385.1-ci maddəsinə görə, öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

Maddənin mətnindən göründüyü kimi, öhdəliyin predmetini pulun ödənilməsi, əmlakın verilməsi, işin görülməsi, xidmətlərin göstərilməsi və ya müəyyən hərəkətdən çəkinmək kimi konkret hərəkət və ya hərəkətsizlik təşkil edir.

Mülki Məcəllənin 386.1-ci maddəsi bəzi istisnalarla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilənin bağlanmalı olduğunu müəyyən edir. Həmin maddədə nəzərdə tutulmuşdur ki, öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır, yəni borclunun kreditor qarşısında olan öhdəliyi müqavilə ilə müəyyən edilməlidir.

Müqavilənin anlayışı Mülki Məcəllənin 389.1-ci maddəsində verilmişdir. Həmin maddəyə uyğun olaraq, mülki hüquq və vəzifələrin müəyyənləşdirilməsi, dəyişdirilməsi və ya xitamı haqqında iki və ya bir neçə şəxsin razılaşması müqavilə sayılır.

Mülki Məcəllənin 405.1-ci maddəsinə görə, tərəflər müqavilənin bütün şərtləri barəsində tələb olunan formada razılığa gəldikdə müqavilə bağlanmış sayılır.

Borc müqaviləsinin anlayışına aydınlıq gətirən Mülki Məcəllənin 739.1-ci maddəsinə əsasən, iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür.

Həmin Məcəllənin 739.2-ci maddəsinə görə isə borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır. Müstəqil peşə fəaliyyəti şəklində pul borc verməklə məşğul olan şəxslər əlavə olaraq peşəkarlıq qaydasında kreditlər verilməsi haqqında müddəaları gözləməlidirlər.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Mülki Məcəllənin 324.4, 385.1, 386.1, 405.1 və 739-cu maddələrinə uyğun olaraq tərəflərin iradə ifadəsini əks etdirən və onların qarşılıqlı hüquq və vəzifələrini müəyyən edən kredit xətti müqaviləsi niyyət razılaşması deyil, müqavilə kimi qəbul olunmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, kredit müqavilələrinin real və ya konsensual müqavilələr olması məsələsinə aydınlıq gətirilməsi müraciətlərdə qaldırılan məsələlərin həlli üçün böyük əhəmiyyət kəsb edir.

Mülki qanunvericilikdə əqdlərin real və konsensual əqdlərə bölünməsi ilə bağlı təsnifat nəzərdə tutulmasa da, mülki hüquq nəzəriyyəsində və Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarında bu və ya digər müqavilənin hüquqi qüvvəyə minmə meyarı üzrə real və konsensual müqavilələrə bölünməsi nəzərdə tutulmuşdur.

Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 666.1, 670.1, 670.3 və 673.1-ci maddələrinin şərh edilməsinə dair” 2012-ci il 19 dekabr tarixli Qərarında real və konsensual müqavilələrə aydınlıq gətirilmişdir. Həmin Qərarda göstərilmişdir ki, mülki qanunvericilikdə bağışlama müqaviləsinin real və konsensual formaları vardır. Hədiyyə verən hədiyyəni bağışlamaqla hədiyyə alanı zənginləşdirdikdə bağışlama müqaviləsi real müqavilə hesab olunur, yəni bu müqavilənin bağlanması barədə razılıq əldə olunmaqla yanaşı əmlak və ya əmlak hüquqları verilir (Mülki Məcəllənin 666.1-ci maddəsi). Hədiyyə verən hədiyyə alana gələcəkdə hədiyyəni bağışlamaq vədi verdiyi halda isə bağışlama müqaviləsinin konsensual forması mövcud olur (Mülki Məcəllənin 668.1.5-ci maddəsi).

Konstitusiya Məhkəməsi Plenumunun bu hüquqi mövqeyi bütün real müqavilələrə eyni qaydada tətbiq oluna bilər.

Real müqavilələr üzrə hüquq və öhdəliklər müqavilə predmeti olan əmlakın (əşyanın) verilməsindən sonra əmələ gəlir. Məsələn, bağışlama müqaviləsi hədiyyə almış şəxsin hədiyyəni qəbul etməsi ilə bağlanmış sayılır.

Konsensual müqavilələr üzrə hüquq və öhdəliklər isə bu müqavilənin bağlandığı (imzalandığı) andan əmələ gəlir. Mülki qanunvericilikdə konsensual müqavilənin əsas əlamətlərindən biri “əmlakı təqdim etməyi öhdəsinə götürür”, “işləri görməyi öhdəsinə götürür” və s. bu kimi ifadələr ilə müəyyən olunur.

Mülki Məcəllənin 739-cu maddəsinin mənasına görə, kreditor pulu kredit alana təqdim etməyi öhdəsinə götürür. Bu isə kredit müqavilələrinin, bir qayda olaraq, konsensual müqavilə olmasını göstərir.

Kredit xətti müqaviləsinin “bu müqavilə bankın kredit vermək vədini ifadə etmir” qeydinə gəldikdə isə Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, borc verməyi vəd etmək dedikdə, kreditorun hər hansı şərt qoymadan ilk tələblə borc alana borc predmetini (pulu) təqdim etməsi başa düşülür. Borc vermək vəd edildikdə vəd edən borc verməyi müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa hər hansı şərt qoymadan öhdəsinə götürür.

Belə nəticə Mülki Məcəllənin 746-cı maddəsindən irəli gəlir. Belə ki, həmin maddəyə görə, borc vermək vəd edildikdə vəd edən borc verməkdən o halda imtina edə bilər ki, digər tərəfin əmlak vəziyyəti borcun qaytarılması üçün təhlükə törədəcək dərəcədə pisləşmiş olsun.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, kredit xətti müqaviləsinin “bu müqavilə bankın kredit vermək vədini ifadə etmir” qeydi məhkəmələr tərəfindən yalnız Mülki Məcəllənin 746-cı maddəsinin tələbləri baxımından qiymətləndirilməlidir.

ümumiyyətlə isə məhkəmələr bu qəbildən olan işlərə baxarkən Mülki Məcəllənin 404-cü maddəsinin tələblərinə riayət etməlidir. Həmin maddəyə əsasən, müqavilə şərtlərini təfsir edərkən məhkəmə təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini nəzərə alır. Bu zaman bütün müvafiq hallar, o cümlədən müqaviləyə qədərki danışıqlar və yazışmalar, tərəflərin qarşılıqlı münasibətlərində yaranmış praktika, işgüzar adətlər, tərəflərin sonrakı hərəkətləri nəzərə alınır (Mülki Məcəllənin 404.1 və 404.2-ci maddələri).

Eyni zamanda, Mülki Məcəllənin 352-ci maddəsinə görə, əqdin bir hissəsinin etibarsızlığı onun qalan hissələrinin etibarsızlığına o halda səbəb olmur ki, əqd onun etibarsız hissəsi daxil edilmədən də bağlana bilərdi. Bu baxımdan kredit xətti müqavilələrində “bu müqavilə bankın kredit vermək vədini ifadə etmir” qeydinin olub-olmaması tərəflərin öhdəliklərinin icrasına təsir etmir.

Müqavilə azadlığı və mülki dövriyyə iştirakçılarının sərbəst iradə ifadəsi prinsipinə uyğun olaraq mülki qanunvericilik imkan verir ki, tərəflər Mülki Məcəllədə sadalanan öhdəliklərin icrasının təminatı üsullarından fərqli təminat üsullarını öz aralarındakı müqavilədə nəzərdə tutsunlar (Mülki Məcəllənin 460.1-ci maddəsi).

Hüquq nəzəriyyəsində əksər təminat üsulları üçün ümumi xüsusiyyətlər müəyyən olunur. Həmin xüsusiyyətlərə üsulların təminat xarakteri daşıması, əsas öhdəlikdən asılılığı, əsas öhdəlikdən ayrılıqda müstəqil mövcudluğunun mümkünsüzlüyü (bank qarantiyası istisna olmaqla), təminat üsullarının aksessorluğu, əmlak yönümlü nəticələrin baş verməsi aiddir.

Mülki Məcəllənin 460.1-ci maddəsində öhdəliklərin icrasının girov, zaminlik, ipoteka və digər üsullarla təmin edilməsinin mümkünlüyü nəzərdə tutulmuşdur.

Kredit xətti müqaviləsinin gələcəkdə qarşılıqlı öhdəlik münasibətlərinin ümumi şərtlərini müəyyən edən əqd olmasını nəzərə alaraq, tərəflər öz aralarında həmin öhdəliklərin icrasının təminat üsullarını müəyyən edə bilərlər.

Bu halda tərəflər açıq şəkildə bilərəkdən bu və ya digər təminat üsulunun seçilməsinə razı olur, onların iradəsi həmin təminat üsulunun müəyyən olunmasına yönəlir.

Öhdəliklərin icrasının təmin edilməsinin əsas üsullarından biri kimi zaminlik çıxış edir.

Zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür. Zaminlik müqaviləsi gələcəkdə yaranacaq öhdəliyin təmin edilməsi üçün də bağlana bilər (Mülki Məcəllənin 470-ci maddəsi).

Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470.1, 470.2 və 471-ci maddələrinin şərh edilməsinə dair” 2012-ci il 4 sentyabr tarixli Qərarında göstərilmişdir ki, Mülki Məcəllənin 470.2-ci maddəsinin “gələcəkdə yaranacaq öhdəliyin təmin edilməsi” müddəası zaminin əvvəlcədən razılaşdırılmış əsas borca dair gələcəkdə yaranacaq öhdəliyə zamin durması kimi başa düşülür.

Mülki Məcəllənin 472.1-ci maddəsinə əsasən, borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, əgər bu Məcəllədə və ya zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmayıbsa, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar.

Beləliklə, Konstitusiya Məhkəməsi Plenumunun yuxarıda göstərilən Qərarına və Mülki Məcəllənin 472.1-ci maddəsinə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, zamin zaminlik müqaviləsi bağlandığı andan öz üzərinə öhdəlik götürmüş olur, lakin bu öhdəlik üzrə zaminin məsuliyyəti borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə yaranır.

Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3, 399.4, 445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair” 2014-cü il 24 dekabr tarixli Qərarında göstərilmişdir ki, öhdəlik hüququnda müqavilənin standart şərtlərinə dair normalarda şəffaflıq prinsipinin tərkib hissəsi kimi müəyyənlik prinsipi (tələbi) mövcuddur. Həmin prinsipə əsasən müqavilənin standart şərtlərində dispozisiya şərtləri və hüquqi nəticələr elə dəqiqliklə təsvir olunmalıdır ki, bu zaman bir tərəfdən müqavilənin standart şərtlərinin istifadəçisi üçün əsaslandırılmamış heç bir qiymətləndirmə azadlığı imkanları yaranmasın, digər tərəfdən isə müqavilə tərəfinin kənar yardım olmadan mümkün qədər aydın və sadə şəkildə öz hüquqlarını müəyyənləşdirə bilməsi (onun bu hüquqları həyata keçirməsinin qarşısının alınmaması üçün) mümkün olsun. Müqavilənin standart şərtləri təfsir edilərkən rast gəlinən bütün qeyri-müəyyənliklər, onları özündə əks etdirən şərtlərin müqaviləyə daxil edilməsini təklif etmiş tərəfin ziyanına (əleyhinə) təfsir edilir (Mülki Məcəllənin 419.1, 419.2 və 420.1.2-ci maddələri).

Bu göstərişlərə əsaslanaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, zaminlik müqaviləsinin bağlanması üçün kredit xətti müqaviləsinin əsas şərtləri aydın müəyyən olunmalıdır.

Zaminin sonradan əmələ gələcək öhdəliyə görə məsuliyyətinin həcmini müəyyən etməyə imkan verən hallar mühüm şərtlər hesab edildiyindən onlar kredit xətti müqaviləsində dəqiq göstərilməlidir.

“Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.9-cu maddəsinə əsasən, bank krediti - bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqlar) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir.

Göründüyü kimi, kredit müqaviləsinin mühüm şərtlərinə kreditin məbləği, müddəti, illik faiz dərəcəsi və s. aid edilə bilər.

Zaminliyə xitam verilməsi halları Mülki Məcəllənin 477-ci maddəsində göstərilmişdir. Belə ki, həmin Məcəllənin 477.0.1-ci maddəsində qeyd edilmişdir ki, zaminliyin təmin etdiyi öhdəliyə xitam verildikdə, habelə zaminin razılığı olmadan həmin öhdəlik dəyişdirildikdə və bu dəyişdirilmə onun məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olduqda zaminliyə xitam verilir.

Zaminin məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə gətirib çıxaran dəyişikliklər dedikdə, zaminin müqavilə bağlayarkən həmin müqavilə üzrə öhdəsinə götürdüyündən daha artıq öhdəliyinin yaranması nəzərdə tutulur. Göründüyü kimi, həmin maddə istənilən dəyişikliyə görə zaminliyin xitamını nəzərdə tutmur. Bu normaya əsasən, zaminliyin xitamı üçün təmin edilmiş öhdəliyə edilən dəyişiklik zaminin məsuliyyətini artırmalı və ya onun üçün başqa əlverişsiz nəticələrə səbəb olmalıdır.

Zaminliyə xitam verilməsi üçün hər iki şərtin, yəni zaminin razılığı olmadan öhdəliyin dəyişdirilməsi və belə dəyişdirilmənin onun məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olması vacibdir.

Zaminin məsuliyyətinin artmasına və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olması hallarına:

- kreditin ümumi məbləğinin artırılması;
- kreditin faizinin artırılması;
- kreditin valyutasının dəyişdirilməsi;
- kreditin qaytarılma müddətinin uzadılması və digər mühüm hallar aid edilə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 470.1, 470.2 və 471-ci maddələrinin şərh edilməsinə dair” 2012-ci il 4 sentyabr tarixli Qərarında qeyd etmişdir ki, zaminlik müqaviləsi məhz əsas öhdəliyin icrasını təmin edən üsullardan biri olduğundan belə müqavilədə zaminliklə təmin edilən əsas öhdəliyin müəyyən olunması və ya müəyyən edilə bilməsi mümkün olmalıdır. Buna müvafiq olaraq zaminlik müqaviləsində aşağıdakılar göstərilməlidir: hansı əsas müqaviləyə dair zaminlik yaranır (müqavilənin tərəfləri, tarixi və nömrəsi göstərilməklə); əsas öhdəliyin (borclunun kreditor qarşısında öhdəliyinin) həddi barədə göstəriş. Zaminliklə təmin edilmiş öhdəliyin konkret məbləğinin müqavilədə göstərilməsi mühüm şərtlərdən biridir və zaminin qanuni maraqlarını qorumaq məqsədi daşıyır.

Zaminin razılığı alınmadan bağlanmış kredit müqavilələrində nəzərdə tutulmuş öhdəliyin konkret həcmi kredit xətti müqaviləsi ilə müəyyən edilmiş ümumi məbləğ və müddət həddində olmalıdır.

Kredit xətti müqaviləsində faiz dərəcəsi göstərilmədikdə bağlanmış kredit müqavilələrində faiz dərəcəsi barədə zaminin razılığı alınmalıdır. Belə razılığın olmaması zaminin məsuliyyətinin artması kimi qiymətləndirilməlidir.

Zaminin məsuliyyətinin artması və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olma faktının müəyyən edilməsi zamanı tərəflərin qanuni maraqlarının nəzərə alınması zəruridir. Məhkəmələr nəzərə almalıdırlar ki, qeyd edilən normanın məqsədi zaminliyin xitamı üçün əsassız üstünlük imkanının yaradılması deyil, əsas öhdəliyin əlverişsiz dəyişikliklərindən zaminə hüquqi müdafiə imkanının yaradılmasıdır.

Bununla əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, hər bir halda “məsuliyyətin artması və ya digər əlverişsiz nəticələrə səbəb olma” məhkəmələr tərəfindən qiymətləndirilərkən işin konkret halları, tərəflərin dəlilləri nəzərə alınmalı və bunun əsasında həmin halların nədən ibarət olması məhkəmə aktlarında əsaslandırılmalıdır.

Kredit xətti müqavilələri, habelə gələcək tələblər üzrə ipoteka təminatı ilə bağlı müraciətlərdə qaldırılan məsələyə dair Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Mülki Məcəllənin 269.1-ci maddəsinə əsasən, girov və ipoteka hüququ girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur və eyni zamanda, borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur. Maddənin mətnindən göründüyü kimi, girov və ipoteka hüququ girov və ipoteka qoyanla girov və ipoteka saxlayan arasında yaranan hüquq münasibətidir. Bu hüquq girov qoyanın əşyası barəsində girov saxlayanın əşya hüququdur, eyni zamanda, borclunun kreditor (girov saxlayan və ipoteka saxlayan) qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur. Girov və ipoteka hüququ əşya hüquqlarının məhdudlaşdırılmasıdır.

Qeyd edilməlidir ki, girov və ipoteka hüququ həm mövcud, həm də gələcək tələb üçün verilə bilər. Girov və ipoteka hüququnun verildiyi tələb yetərli dərəcədə aydın olmalıdır (Mülki Məcəllənin 269.11-ci maddəsi).

Mülki Məcəllənin 307.4-cü maddəsinə əsasən, əgər ipoteka ilə təmin edilmiş öhdəliyin məbləği gələcəkdə müəyyənləşdirilməlidirsə, ipoteka müqaviləsində onun müəyyənləşdirilməsinin qaydası və digər zəruri şərtləri göstərilməlidir. İpoteka müqaviləsində göstərilməli olan şərtlər “İpoteka haqqında” Qanunun 10.5-ci maddəsində əks olunmuşdur. Həmin maddəyə görə, ipoteka müqaviləsində tərəflərin adı və yaşayış yeri (olduqları yer), ipotekanın predmeti, onun adı, olduğu yer və eyniləşdirilməsi üçün yetərli olan digər təsviri, əsas öhdəliyin mahiyyəti, ölçüsü (məbləği), əmələ gəlməsi əsasları və icra müddəti, bu öhdəliyin əsaslandığı müqavilənin tərəfləri, bağlandığı yer və tarix göstərilməlidir. Əgər əsas öhdəliyin məbləği gələcəkdə müəyyənləşdirilməlidirsə, ipoteka müqaviləsində həmin məbləği müəyyən etmə qaydası göstərilməlidir.

Lakin Mülki Məcəllənin 307.4-cü və “İpoteka haqqında” Qanunun 10.5-ci maddəsində ipoteka müqaviləsində göstərilməli olan zəruri şərtlər dəqiq müəyyən olunmamışdır. Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, ipoteka müqaviləsinin bağlanması üçün də kredit xətti müqaviləsində zəruri şərtlər (məbləğ, müddət, faiz dərəcəsi, valyuta və s.) yetərli dərəcədə aydın göstərilməlidir.

Kredit xətti müqaviləsinin mühüm şərtlərinə dəyişiklik edildikdə ipoteka müqaviləsində də müvafiq düzəlişlər edilməlidir. Belə ki, “İpoteka haqqında” Qanunun 14-cü maddəsində qeyd olunur ki, ipoteka müqaviləsində əsas öhdəliyin mahiyyəti, ölçüsü və ya icra müddəti dəyişdikdə ipotekanın əlavə dövlət qeydiyyatı aparılmalıdır. Yəni həmin dəyişikliklər barədə ipoteka qoyan şəxsin məlumatı və razılığı olmalıdır.

Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Mülki Məcəllənin 324.4, 385.1, 386.1, 405.1 və 739-cu maddələrinə uyğun olaraq tərəflərin iradə ifadəsini əks etdirən və onların qarşılıqlı hüquq və vəzifələrini müəyyən edən kredit xətti müqaviləsi niyyət razılaşması deyil, müqavilə kimi qəbul olunmalıdır;
- Mülki Məcəllənin 739-cu maddəsinin mənasına görə, kredit xətti müqaviləsinə əsasən kreditor kredit alana pulu təqdim etməyi öhdəsinə götürür. Müqavilənin “bu müqavilə bankın kredit vermək vədini ifadə etmir” qeydi məhkəmələr tərəfindən yalnız Mülki Məcəllənin 746-cı maddəsinin tələbləri baxımından qiymətləndirilməlidir;
- Zaminlik və ipoteka müqavilələrinin bağlanması üçün kredit xətti müqaviləsində mühüm şərtlər (məbləğ, müddət, faiz dərəcəsi, valyuta və s.) yetərli dərəcədə aydın göstərilməlidir. Kredit xətti müqaviləsində faiz dərəcəsi göstərilmədikdə, bağlanan kredit müqavilələrində faiz dərəcəsi barədə zaminin və ya ipoteka qoyanın razılığı alınmalıdır;
- Mülki Məcəllənin 477.0.1-ci maddəsinin “onun məsuliyyətinin artması və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olması” müddəası kredit xətti müqaviləsində nəzərdə tutulan kreditin məbləğinin, müddətinin, faiz dərəcəsinin bağlanan kredit müqavilələrində artırılmasını, kreditin valyutasının zaminin razılığı olmadan dəyişdirilməsini və digər halları nəzərdə tutur;
- Mülki Məcəllənin 307.4-cü maddəsinin “əgər ipoteka ilə təmin edilmiş öhdəliyin məbləği gələcəkdə müəyyənləşdirilməlidirsə, ipoteka müqaviləsində onun müəyyənləşdirilməsinin qaydası və digər zəruri şərtləri göstərilməlidir” müddəası ipoteka müqaviləsində məbləğin, müddətin, faiz dərəcəsinin, valyuta və s. zəruri şərtlərin göstərilməsini ehtiva edir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### QƏRARA ALDI:

**1.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 324.4, 385.1, 386.1, 405.1 və 739-cu maddələrinə uyğun olaraq tərəflərin iradə ifadəsini əks etdirən və onların qarşılıqlı hüquq və vəzifələrini müəyyən edən kredit xətti müqaviləsi niyyət razılaşması deyil, müqavilə kimi qəbul olunmalıdır.

**2.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 739-cu maddəsinin mənasına görə, kredit xətti müqaviləsinə əsasən kreditor kredit alana pulu təqdim etməyi öhdəsinə götürür. Müqavilənin “bu müqavilə bankın kredit vermək vədini ifadə etmir” qeydi məhkəmələr tərəfindən yalnız Azərbaycan Respublikası Mülki Məcəlləsinin 746-cı maddəsinin tələbləri baxımından qiymətləndirilməlidir.

**3.** Zaminlik və ipoteka müqavilələrinin bağlanması üçün kredit xətti müqaviləsində mühüm şərtlər (məbləğ, müddət, faiz dərəcəsi, valyuta və s.) yetərli dərəcədə aydın göstərilməlidir. Kredit xətti müqaviləsində faiz dərəcəsi göstərilmədikdə, bağlanan kredit müqavilələrində faiz dərəcəsi barədə zaminin və ya ipoteka qoyanın razılığı alınmalıdır.

**4.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 477.0.1-ci maddəsinin “onun məsuliyyətinin artması və ya onun üçün digər əlverişsiz nəticələrə səbəb olması” müddəası kredit xətti müqaviləsində nəzərdə tutulan kreditin məbləğinin, müddətinin, faiz dərəcəsinin bağlanan kredit müqavilələrində artırılmasını, kreditin valyutasının zaminin razılığı olmadan dəyişdirilməsini və digər halları nəzərdə tutur.

**5.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 307.4-cü maddəsinin “əgər ipoteka ilə təmin edilmiş öhdəliyin məbləği gələcəkdə müəyyənləşdirilməlidirsə, ipoteka müqaviləsində onun müəyyənləşdirilməsinin qaydası və digər zəruri şərtləri göstərilməlidir” müddəası ipoteka müqaviləsində məbləğin, müddətin, faiz dərəcəsinin, valyuta və s. zəruri şərtlərin göstərilməsini ehtiva edir.

**6.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**7.** Qərar “Azərbaycan”, “Respublika”, “Xalq qəzeti”, “Bakinski raboçi” qəzetlərində, “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı”nda dərc edilsin.

**8.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad ABDULLAYEV.**

# Birgə əməkdaşlıq elmimizin inkişafına töhfə verəcək






**Elm daim inkişafdadır. Bunu zamanın özü də tələb edir, çünki elm, inkişaf, tərəqqi dünyanın dəyişməsinə zəmin yaradır. Deməli, dəyişən dünyanın özü də inkişafdadır. Elmi uğurların nəticələrinin, yeniliklərinin dünya miqyasında tanınması hər bir zaman, hər bir dövr, hər bir cəmiyyət üçün, sözün həqiqi mənasında, qlobal problemə çevrilir. Gəlin etiraf edək ki, elə bu problemin həlli məsələsi də həmişə elmin, bu sahədə çalışan fədakar insanların üzərinə düşür. Elmin qiymətləndirilməsi... Bu gün dünya alimlərinin qarşısında duran əsas məsələlərdən biri də budur. Belə mühüm, qlobal məsələnin həllində isə müxtəlif istiqamətlərdə nəşr olunan elmi jurnalların rolu böyükdür. Elmi jurnalların fəaliyyətinin dəyərləndirilməsində ən mötəbər mənbə "Clarivate Analytics" Agentliyinin Biliklər Bazasına (əvvəllər "Thomson Reuters") daxil olan, təsir əmsalına malik Azərbaycanda nəşr olunan yeganə jurnal ("Applied and Computational Mathematics") 2008-ci ildə "Thomson Reuters" tərəfindən siyahıya alınan, 2010-cu ildə qeydiyyatdan keçən, keyfiyyət dərəcəsinin qorunub saxlanması istiqamətində pillə-pillə irəliləyərək öz nüfuzunu artırmaqdadır.**

**Bu yaxınlarda jurnalın keyfiyyət dərəcəsinin yüksəlməsi barədə aldığımız xəbər təkcə bu nəşrin redaksiya heyətinin, onun təsisçilərinin deyil, Azərbaycan elminin nailiyyəti kimi dəyərləndirilməlidir. Ənənəmizə sadiq qalaraq biz bu dəfə də Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru, akademik, "Applied and Computational Mathematics" jurnalının redaktoru Fikrət Əliyevlə görüşüb söhbət etmişik. Onunla müsahibəni oxucularımıza təqdim edirik:**

**- Fikrət müəllim, ilk öncə, Sizi jurnalınızın keyfiyyət dərəcəsinin yüksəlməsi münasibətilə təbrik edirik.**

- Çox sağ olun, düşünürəm ki, bu, bütün Azərbaycan elminin uğurudur. Bu, bir həqiqətdir ki, elm daim inkişaf edir və elmin özünə qiymət vermək də artıq çoxdan zərurətə çevrilib. Elmin qiymətləndirilməsi özlüyündə çətin bir prosesdir və dünyada bu işi yerinə yetirən bir neçə agentlik fəaliyyət göstərir: "Clarivate Analytics" Agentliyi, Kopernik qiymətləndirmə sistemi, Şanxay qiymətləndirmə sistemi və s. "Clarivate Analytics" bu sistemlərin ən yetkinidir, dünyanın 120 aparıcı dövləti öz elmlərini bu qiymətləndirmə sistemi əsasında qurub ki, bu da onların elmi inkişafını təmin edir.

Elmi junalların fəaliyyəti "Clarivate Analytics" Agentliyinin Biliklər Bazası, bu bazanın imkanları, həmçinin bazaya daxil olan elmi jurnalların seçilmə meyarları əsasında dəyərləndirilir. Azərbaycanda isə elmi jurnalların beynəlxalq bazalara inteqrasiya vəziyyəti o qədər də sevindirici deyil. Hazırda bizdə "Clarivate Analytics" Agentliyinin Biliklər Bazasına daxil olan 8 jurnal dərc olunur. Təsir əmsalına isə yeganə "Applied and Computational Mathematics" jurnalı malikdir. Türk Dünyası Riyaziyyat Cəmiyyətinin "Nəzəri və tətbiqi riyaziyyat" jurnalı və Xəzər Universitetinin "Xəzər humanitar və sosial elmlər" jurnalı və digərləri "Clarivate Analytics" daxilində yaradılmış "Emerging Sources Citation index" bazasında yer almışdır. Bu gün Azərbaycanda 300-dən çox elmi jurnal dərc olunur ki, onların da yalnız 18-i seçim üçün "Clarivate Analytics" Agentliyinin Biliklər Bazasının texniki tələblərini ödəyir. Bu mənada "Applied and Computational Mathematics" jurnalının belə bir mötəbər sistemdə yer alması, onun təsir əmsalının getdikcə artması həqiqətən sevindirici, qürurgətirici hadisədir.




Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyilə Bakı Dövlət Universiteti Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunda çap olunan "Applied and Computational Mathematics" jurnalı "Clarivate Analytics"-in builki hesabatında 2017-ci ilin nəticələrinə görə böyük uğur qazanıb. Belə ki, jurnalın keyfiyyət dərəcəsi 1,333-dən 2,365-ə yüksəlmişdir. Bu isə o deməkdir ki, dünyada bu istiqamətdə nəşr olunan 252 jurnal arasında bizim jurnal 19-cu yerdədir. Adətən belə jurnallar 4 qrupa bölünür ki, bizim jurnal da I qrupa daxil edilmişdir. MDB məkanında çox böyük fərqlə I, Şərqi Avropada II, Avropada IX yerdə qərarlaşıb. Bu fakt indi dünyanın bir çox alimlərinin diqqətini cəlb edib. Bizə ünvanlanan təbrik məktubları da bunu göstərir. Düşünürəm ki, jurnal üçün yeni bir dövrün başlanğıcı qoyulub.

Hələ sovetlər dövründə elmi jurnallar nəşri sahəsində Azərbaycan elminin böyük uğurları olub, ötən əsrin 80-ci illərində Milli Elmlər Akademiyasının dünya elmi ictimaiyyəti tərəfindən qəbul edilən jurnalları da nəşr olunurdu: "EA-nın məruzələri", "EA-nın xəbərləri" və s. Biz həmin ənənəni bərpa etməliyik. Vaxtilə dünyaya səs salan bu tip jurnalların indi taleyi sual altındadır. Onların keçmiş nüfuzunu qaytarmalı, bu istiqamətdə işlər görməliyik.

Ümumiyyətlə, Azərbaycandakı elmi nəşrlərin, xüsusilə Azərbaycan Milli Elmlər Akademiyasının elmi jurnallarının beynəlxalq bazalara inteqrasiya səviyyəsinin yüksəldilməsi məqsədilə əməli tədbirlər görməliyik.

**- Elmi jurnalların bu səviyyəyə çatdırılması üçün bir çox mühüm amillər vardır ki, onlardan biri də digər ölkələrlə bu istiqamətdə birgə fəaliyyət, qarşılıqlı əməkdaşlıqdır. Azərbaycanın bu sahədə də müəyyən təcrübəsi var.**

- Tamamilə doğrudur, birgə fəaliyyət, mübadilə elmin inkişafına çox böyük təkan verir. Biz Türk Dünyası Riyaziyyat Cəmiyyəti ilə əməkdaşlıq edirik, Qazaxıstan alimləri ilə elmi əlaqələr mövcuddur. Qazaxıstan Respublikasının Əl-Fərabi adına Milli Dövlət Universiteti ilə Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutu arasında birgə əməkdaşlıq edilir. "Clarivate Analytics" siyahısına daxil olan Türk Dünyası Riyaziyyat Cəmiyyətinin (TDRC) "Nəzəri və Tətbiqi Riyaziyyat" jurnalı da elə bu iki qurumun maliyyə dəstəyi ilə işıq üzü görür. Bu, Azərbaycan və Qazaxıstan alimlərinin birgə fəaliyyətinin nəticəsi, uğurudur. Biz bu istiqamətdə fəaliyyətimizi genişləndirməliyik.

**- Birgə əməkdaşlığın, fəaliyyətin ən gözəl nümunəsi beynəlxalq səviyyəli konfranslardır. Müxtəlif mövzulara həsr olunan belə toplantılarda dünya alimləri bir araya gəlir, dünya elminin inkişaf perspektivləri, uğurları, nəticələr təhlil edilir, fikir mübadilələri aparılır. Bakı dəfələrlə belə səviyyəli konfranslara ev sahibliyi edib. Bizim Sizinlə görüşümüz də növbəti belə bir toplantının keçirilməsi ərəfəsinə təsadüf edir. Konfrans barədə fikirlərinizi bilmək istərdik.**

- "Clarivate Analytics" Agentliyi tərəfindən müxtəlif ölkələrdə beynəlxalq konfransların keçirilməsi artıq ənənə şəklini alıb. Bir qayda olaraq, bu toplantılarda dünya alimlərinin bu sahədə qazandıqları təcrübə və əldə etdikləri nailiyyətlər barəsində ətraflı məlumat verilir. Bu, sayca altıncı konfransdır. 2005-ci ildən keçirilən bu konfranslarda alimlər bir araya gəlir, dünya elminin problemləri, çətinliklər, onların həlli yolları barədə fikir mübadiləsi aparırlar. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və Bakı Dövlət Universitetinin təşkil etdiyi, Bakıda keçirilən növbəti konfrans da elmin inkişafı üçün dünya alimlərinin birgə əməkdaşlığına imkanlar yaradacaq, Azərbaycan alimləri yaranmış imkanlardan faydalanaraq elmimizin inkişafına öz töhfələrini verəcəklər. Bu müqəddəs işdə alimlərimizə uğurlar diləyir, onlara yeni-yeni nailiyyətlər arzulayıram.

**Müsahibəni apardı:**
**Zümrüd ABDULLAYEVA,**
**"Respublika".**

*Nəsillərə nümunə*

# 95 yaşlı veteranın həyat hekayəti

**Televiziyada qaçqınlarla bağlı süjetlər göstəriləndə, Qərbi Azərbaycanda erməni tapdağında qalan qədim Oğuz ellərindən söhbət açılanda 95 yaşlı leytenant Bayram Həsənov heç vaxt əsəblərini cilovlaya bilmir, qəlbinin sarı simi dilə gəlir, göyüm-göyüm göynəyir, gözləri önündə hər qarışında ayaq izləri qalan Vedibasar torpağı canlanır...**

**Böyük Vətən Müharibəsi veteranı Bayram Həsənovun həyat hekayəti olduqca maraqlıdır, nəsillər üçün nümunədir.**



Haqqında söhbət açdığımız yaşı 100-ü haqlayan, gur saçlı veteran hələ də qəddi-qamətini itirməyib. Bayram Həsənov 95 il öncə Qədim Oğuz yurdu olan Vedinin Çimən kəndində dünyaya göz açıb. Ailədə 4 qardaş, 4 bacı olublar. Bayram kişinin böyük qardaşı Yusif 1939-cu ildə ordu sıralarına yollanıb, həmişə əsgər məktubu ilə valideynlərini sevindirib, tezliklə görüşəcəyini bildirib. Böyük Vətən Müharibəsi başlayandan az sonra ölüm-dirim savaşına qoşulub. Ağır döyüşlərin birində cəbhədə qəhrəmancasına həlak olub.

Bayram Həsənov 1942-ci ildə doğma kəndlərindən ayrılaraq müharibəyə yollanıb. Döyüş yolu Ukraynadan başlayıb. 77-ci diviziyanın 324-cü alayında almanlara qarşı igidliklə vuruşub, heç vaxt ölümündən qorxmayıb, ən çətin döyüş tapşırıqlarının iştirakçısı olub.

Həmişə şirin yuxu həsrətində olub. Gözlərini yumanda ana qədər şirin olan Vedibasar mahalını, onun romantik mənzərələrini, məxmər çəmənliklərini görüb...

Sevastopolda gedən ağır döyüşlərdə Bayram Həsənov qəflətən ağır yaralanıb, huşunu itirərək xeyli yaralılar arasında qalıb. Sonra isə Vedibasarın cəsur, qartal oğlu hərbi hospitalda yerləşdirilib. Bir müddətdən sonra gözlərini açaraq başının üstündə tibb bacılarını görüb. Dodaqlardan süzülüb gələn kəlmə ancaq bu olub:

—Yalvarıram, su verin mənə, su!

Günlər keçir, vedili Bayram Həsənovun səhhəti öz qaydasına düşür, ağrıları azalır. Həmişə qəlbi döyüş yoldaşlarının yanında olub, yağı düşməndən intiqam almaq amalı ilə yaşayıb.

Çox keçmədən Bayram Həsənov yenidən cəbhəyə qayıdıb, ağır döyüşlərə atılıb, hər dəfə avtomatını sinəsinə sıxanda neçə-neçə faşistləri cəhənnəmə vasil edib.

Bayram Həsənov 6 aylıq kursa göndərilir. Kiçik leytenant rütbəsi aldıqdan sonra bir çox orden və medallarla müharibədən tərxis olunaraq Vediyə, doğma kəndləri Çimənə qayıdır.

Sidq ürəklə əmək fəaliyyətinə başlayır. Bir müddət kənddəki məktəbdə hərbi müəllim kimi fəaliyyət göstərib, gözlərinin nurunu, qəlbinin hərarətini gənc nəslin təlim-tərbiyəsinə həsr edib. Ayrı-ayrı illərdə Qarabağlılar rayonunda Komsomol Komitəsinin birinci katibi, əmanət kassasının müdiri, ictimai-iaşə idarəsinin direktoru, tədarük idarəsinin müdiri və digər vəzifələrdə çalışıb.

Erməni xəyanəti nəticəsində Bayram kişi 1988-ci ildə 200 mindən çox azərbaycanlı kimi doğma torpağından qovulub. Köç karvanında Bakıya üz tutub, paytaxtın Nərimanov rayonunda məskunlaşıb. 15 il rayon Müharibə Veteranları Şurasına rəhbərlik edib. 9 May — Qələbə Günündə bir neçə dəfə ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevlə yaddaqalan görüşləri olub.

95 yaşlı Bayram Həsənovun on bir nəvəsi, 15 nəticəsi var. Ən kiçik nəticəsi 6 aylıq Sofiya qürbətdə, Londonda yaşayır...

Biz ömrünün 95-ci baharını yaşayan Bayram kişi ilə bir yay günündə həyət evində görüşüb söhbət etdik, pürrəng çaydan içə-içə xəyal bizi Vedibasar ellərinə, İrəvana, Göyçə gölünün nəğməli sahillərinə aparıb çıxardı.

Yubilyarı ad günü münasibətilə qəlbən təbrik edib, ona möhkəm cansağlığı arzuladıq. Görüşümüzün sonunda dediyi sözləri olduğu kimi qələmə aldıq:

—Axşam-sabah qəlbim Vedi həsrəti ilə döyünür, Abbasqulu bəyin yurdunda murdar ermənilərin at oynatmalarına heç cür dözə bilmirəm. Ancaq əminəm ki, gec-tez vedililər doğma yurda dönəcək, misri qılınc azğın ermənilərin başına enəcəkdir...

**Qədir ASLAN,**
**"Respublika".**

# 700 bal toplayanlara UNEC-də ikinci ixtisas ödənişsiz olacaq

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) İctimaiyyətlə Əlaqələr Şöbəsinin məlumatında bildirilir ki, yeni tədris ilindən Universitet Daxili İki Diplom (UDİD) proqramına yeniliklərlə start veriləcək.**

2018/2019-cu tədris ilindən UNEC-ə 700 bal toplayaraq qəbul olan tələbələr proqrama ödənişsiz qoşula biləcəklər. 600-dən yüksək bal toplayan abituriyentlər üçün də UDİD proqramında inanılmaz fürsət yaradılıb. Belə ki, 600 və daha yüksək bal toplayaraq UNEC-i seçən abituriyentlərə UDİD proqramı üzrə təhsil haqqında 50 faiz güzəşt tətbiq olunacaq.

UDİD proqramının məqsədi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gələn tələbləri icra etmək, bakalavriat səviyyəsində qəbul olunduğu ixtisaslarda müvəffəqiyyətlə təhsil alan tələbələrin ikinci ixtisas üzrə də əlavə təhsil almaqla, rəqabətədavamlı mütəxəssis kimi hazırlanmasıdır. UDİD proqramına qoşulan tələbələr 4 il ərzində iki ixtisasa yiyələnməklə gələcəkdə əmək bazarında layiqli yer tutmaq və onun tələblərinə çevik uyğunlaşmaq imkanı əldə edəcəklər.

İlkin mərhələdə UDİD proqramı "maliyyə", "mühasibat uçotu və audit" və "marketinq" ixtisasları üzrə açılıb.

Qeyd edək ki, UNEC-ə 600 və daha yüksək bal toplayaraq qəbul olunan tələbələr universitetin xüsusi təqaüdünü də qazanırlar.

**Ülvi QARAYEV,**
**"Respublika".**

# Dövlət Miqrasiya Xidmətində "Beynəlxalq Yay Hüquq Məktəbi"nin açılışı olub

**Dövlət Miqrasiya Xidmətinin (DMX) inzibati binasında "Beynəlxalq Yay Hüquq Məktəbi"nin açılış mərasimi keçirilib. Yay məktəbində Avropanın 17 ölkəsindən olan 100 xarici hüquqşünas tələbə iştirak edir.**



DMX-dən AZƏRTAC-a bildiriblər ki, mərasimdə çıxış edən Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov "Beynəlxalq Yay Hüquq Məktəbi"nin açılışı münasibətilə iştirakçılara təbriklərini çatdırıb və tədbirin DMX-də keçirilməsindən məmnunluğunu ifadə edib. Avropalı tələbələrin bu səfərinin ümumilikdə ölkəmiz haqqında, Azərbaycan mədəniyyəti barədə ətraflı məlumat almaq baxımından da yaxşı imkan olduğunu deyən V.Hüseynov iştirakçıların respublikamızda təşkil edilmiş yay məktəbindən razı qalacaqlarına əminliyini diqqətə çatdırıb. Bu platformanın əhəmiyyətini vurğulayan Xidmət rəisi artıq dördüncü dəfə Bakıda təşkil edilən layihənin səmərəsindən bəhs edib.

V.Hüseynov açılış mərasiminin mövzusu olan "Azərbaycanın açıq hökumət modeli: Miqrasiya sahəsində şəffaflıq və açıq hökumət prinsipləri"nin fəlsəfəsi, hüquqi bazası, praktik əhəmiyyəti barədə iştirakçılara ətraflı məlumat verib. Açıq hökumətin prinsiplərinə və qanunvericiliyə uyğun olaraq DMX tərəfindən ölkəmizə gələn əcnəbilər üçün miqrasiya ilə bağlı prosedurların sadələşdirilməsi məqsədilə görülən işlər diqqətə çatdırılıb. "İstər turist kimi, istərsə də işgüzar səfərə getmək istəyən şəxsin ilk olaraq maraqlandığı məsələlərdən biri də təyinat ölkənin miqrasiya qaydaları olur", - deyən Xidmət rəisi ölkəmizdə miqrasiya xidmətlərinə rahat çıxış əldə etmək imkanlarını təmin etmək üçün həyata keçirilən islahatlar və tətbiq olunan son yeniliklərdən söhbət açıb.

"Avropa Hüquqşünas Tələbələr Assosiasiyası"nın Azərbaycan nümayəndəliyinin - "ELSA Azərbaycan"ın vitse-prezidenti Çinarə Qasımova bildirib ki, Avropanın 42 ölkəsində fəaliyyət göstərən ELSA beynəlxalq təşkilatı 230 universitetdə təhsil alan 40 mindən çox hüquqşünas tələbəni və gənc hüquqşünası sıralarında birləşdirir. Təşkilatın məqsədi Avropada gənc hüquqşünas tələbələr arasında təhsil-mübadilə imkanlarının genişləndirilməsinə, cəmiyyətin inkişafında onların fəal iştirakının təşviq edilməsinə, nəzəri biliklərinin praktiki tətbiqinə nail olmaqdır. Azərbaycan 2010-cu ildə ELSA-ya üzv olub. Azərbaycanlı hüquqşünas tələbələr bu təşkilatın dəstəyi ilə xaricdə təcrübə keçiblər.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin aparat rəhbəri Azad Cəfərli "ASAN xidmət" modeli haqqında geniş təqdimatla çıxış edib, "ASAN Viza"nın imkanlarından, yaratdığı məmnunluqdan danışıb.

DMX-nin beynəlxalq əməkdaşlıq idarəsi rəisinin müavini Ülvi Əliyev Azərbaycanda miqrasiya idarəçiliyinə dair təqdimatla çıxış edib.

Açılış mərasimində tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**AZƏRTAC**

# Dövlət Sosial Müdafiə Fondu Qəbələdə regional müşavirə keçirib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu Qəbələ rayonunda həmin rayon, habelə Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, İsmayıllı, Ağsu, Ağdaş, Göyçay, Ucar, Kürdəmir, Mingəçevir, Naftalan, Yevlax, Bərdə rayonlarındakı şöbələrinin əməkdaşlarının iştirakı ilə regional müşavirə keçirib.**





Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müşavirədə Fondun fəaliyyət istiqamətləri üzrə görülən işlər, sosial təminat növlərinin təyinatı üzrə əhaliyə göstərilən xidmətin vəziyyəti ətraflı müzakirə edilib. Fondun direktor müavini Cavid Abdullayev sosial sığorta daxilolmaları üzrə həmin rayonlarda əldə olunan nəticələri, bu sahədə ayrı-ayrı şöbələrin büdcə proqnozlarını yerinə yetirmədiklərini, sosial sığorta edənlərlə işin təşkilində, sosial təminat növlərinin təyinatı sahəsində əhaliyə xidmətlərdə yol verilən nöqsanları diqqətə çatdırıb.

Rayon şöbələrinin hər birinin fəaliyyəti ayrılıqda təhlil olunub. Sosial sığorta münasibətlərinin sığorta-pensiya sisteminin tələblərinə uyğun və tam şəffaf qurulması, bu sahədə fiziki və hüquqi şəxslərlə işin düzgün təşkili ilə bağlı müşavirə iştirakçılarına təlimatlar verilib. Sosial təminat növlərinin təyinatı zamanı süründürməçilik, vətəndaşların müraciətlərinin cavablandırılmasının gecikdirilməsi hallarına yol verən şöbələrin fəaliyyəti tənqid olunub. Mövcud olan nöqsan və çatışmazlıqların qısa müddətdə aradan qaldırılması tapşırılıb. Sosial sığorta daxilolmalarında əhəmiyyətli artımların təmin edilməsi və sosial sığorta daxilolmaları üzrə büdcə proqnozlarına əməl olunması üçün zəruri tədbirlərin görülməsi, vətəndaşlarla münasibətlərdə etik davranış qaydalarının rəhbər tutulması, müraciətlərin vaxtında, tam və dolğun şəkildə cavablandırılması və s. barədə tapşırıqlar verilib.

**Mustafa KAMAL,**
**"Respublika".**

# Enerji sistemində yaranan problemə baxmayaraq, "AzerTelecom" fasiləsiz və dayanıqlı internet xidmətini təmin edib

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" MMC ölkədə ötən həftə elektrik enerjisinin təminatında yaranmış fasilə zamanı respublika ərazisində internet xidmət provayderlərini və eləcə də korporativ müştəriləri internet xidməti ilə fasiləsiz və dayanıqlı şəkildə təmin edib.

Belə ki, baş vermiş qəzadan sonra şirkət tərəfindən vaxtında görülmüş tədbirlər nəticəsində internet təminatında fasilələrin baş verməməsi üçün bütün ehtiyat avadanlıqlar və əlaqəli resurslar prosesə cəlb edilib. Nəticədə provayderlərə və korporativ müştərilərə təqdim olunan internet xidmətinə çıxışda hər hansı bir problem yaranmayıb.

Hazırda da provayderlərə təqdim olunan sürətli və dayanıqlı internet rabitəsi ilə təminatda hər hansı problem müşahidə edilmir. Xidmətin dayanıqlığının maksimum təminatı üçün müvafiq işlər görülüb. Həmçinin şirkətin təqdim etdiyi internet rabitəsi xidmətinin fasiləsiz və davamlı təminatı üçün bütün ehtiyat avadanlıqların daim işlək vəziyyətdə olmasına mütəmadi olaraq nəzarət edilir.

*Qeyd edək ki, "AzerTelecom" MMC Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. "AzerTelecom" şirkəti internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), VoİP xidməti, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.*

*Şirkət haqqında daha ətraflı məlumatı şirkətin www.azertelecom.az rəsmi internet saytından və Facebook (www.facebook.com/azertelecom.az) və LinkedIn (https://www.linkedin.com/company/azertelecom) sosial şəbəkələrindəki səhifələrindən əldə etmək mümkündür.*

**Ü.QARAYEV,**
**"Respublika".**

# “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalı cəbhə rayonlarında

## *Layihənin Füzuli və Ağdamda keçirilən tədbirləri böyük maraqla qarşılanıb*

**Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə “100 illik tariximiz” devizi altında keçirilən “Bölgələrdən bölgələrə” adlı yaradıcılıq festivalı davam edir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş layihənin əsas məqsədi zəngin dövlətçilik ənənələrinə malik olan xalqımızın mədəni irsinin təbliği, regionların mədəni potensialının nümayiş etdirilməsi, bölgələrarası mübadilənin gücləndirilməsidir. Layihənin yay mövsümündə keçirilməsi həm ölkəmizə gələn xarici qonaqlara, həm də yerli sakinlərə regionların rəngarəng mədəni həyatı ilə əyani şəkildə tanış olmağa imkan yaradır.**

**İyunun 25-də Masallı rayonunda start verilən festival daha sonra Lənkəran (26 iyun), Salyan (30 iyun) və Sabirabadda (1 iyul) davam edib.**

* * *

İyulun 7-də festival estafetini cəbhə bölgəmiz - Füzuli rayonunun Horadiz şəhəri qəbul edib. Festival çərçivəsində Muğam Mərkəzində təşkil olunan tədbirdə Horadiz sakinləri, eləcə də kənd və qəsəbələrdən gəlmiş füzulililər, rayonun qonaqları Mədəniyyət Nazirliyinin 15 regional idarəsi tərəfindən təşkil edilən sərgilərə maraqla baxıb, pavilyonlara baş çəkərək ayrı-ayrı bölgələrin mədəni irsini əks etdirən xalq sənətkarlıq nümunələri, rəsmlər, suvenirlər və digər əl işləri ilə yaxından tanış olublar.



Yaradıcılıq festivalında hər bir regional idarə üzrə folklor qrupları, yerli incəsənət və bədii özfəaliyyət kollektivləri konsert proqramı ilə çıxış ediblər. Təqdim olunan rəngarəng musiqi nömrələri, rəqslər, səsləndirilən şeirlər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Füzuli sakinləri, müxtəlif şəhər və rayonlardan gəlmiş iştirakçılar - sənətkarlar, rəngarəng əl işlərini nümayiş etdirən ustalar festivalın təşkilindən razılıqlarını ifadə edib, bölgələrdə bu cür tədbirlərin keçirilməsinə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Festival iştirakçıları tədbirlə bağlı təəssüratlarını bölüşüblər. **Kürdəmir Regional Mədəniyyət İdarəsinin təmsil edən Nazim Əzimov** festivalın əhəmiyyətini yüksək qiymətləndirib: “Festivalın keçirilməsi olduqca təqdirəlayiqdir. Çünki respublikamızın ayrı-ayrı bölgələri öz mədəniyyət nümunələrini təqdim edir, iştirakçılar hər bir bölgənin zəngin tarixi-mədəni irsi, adət-ənənələri, məişəti, incəsənəti ilə tanış olmaq imkanı qazanır. Əminəm ki, tədbir bölgələr arasında mədəni mübadilənin daha da dərinləşməsinə təkan verəcək, regionlararası yaradıcılıq əlaqələri daha da genişlənəcək”.

**Ağcabədi Regional Mədəniyyət İdarəsini təmsil edən Namiq Həsənov** isə ölkəmizin hər bir bölgəsinin zəngin mədəniyyətə olduğunu dilə gətirib: “Ölkəmizin hər bir bölgəsi fərqli mədəniyyəti, incəsənət nümunələri ilə zəngindir. Bu rəngarənglik bizim ən böyük sərvətimizdir. Bu gün “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalı Qarabağ torpağında keçirilir. Qarabağ çox zəngin tarixi-mədəni irsə malikdir. Biz Ağcabədi Regional Mədəniyyət İdarəsi olaraq, festivalda müxtəlif maketlər, Qarabağın keçmişini və hazırkı dövrünü əks etdirən sərgilər, müxtəlif əl işləri ilə təmsil olunuruq. Təşkil etdiyimiz sərgi, həmçinin “Şur” ansamblının çıxışı iştirakçılar tərəfindən böyük maraqla qarşılandı”.

**Füzuli rayon Əhmədalılar kənd sakini Xalisə Məmmədova** festivalda iştirakından məmnunluğunu belə ifadə edib: “Tədbir olduqca maraqlı oldu. Bölgələrimizi təmsil edən sərgilərdə nümayiş olunan rəsmlər, suvenirlər, müxtəlif əl işləri seyr etdikcə xalqımızın necə qabiliyyətli, zərif zövqlü olduğunu qürur hissi ilə düşündüm. İncəsənət kollektivlərinin konsert proqramından isə bütün iştirakçılar kimi mən də böyük zövq aldım. İnsanlara zövq verən, ruhun oxşayan, keçmişini və indisini tanıdan və xalqın mənəvi sərvətlərini dəyərləndirən belə gözəl tədbirin təşkilatçılarına minnətdarlığımı bildirirəm”.

* * *

**İyulun 8-də “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalının növbəti ünvanı başqa bir cəbhə bölgəmiz - Ağdam rayonu olub.**



Rayonun Quzanlı qəsəbəsindəki Heydər Əliyev adına parkda keçirilən tədbirdə rayonun kənd və qəsəbələrindən gəlmiş sakinlər, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri, həmçinin respublikamızın digər bölgələrindən olan qonaqlar əsl mədəniyyət bayramının şahidi olublar.

Park ərazisində Mədəniyyət Nazirliyinin Sumqayıt, Gəncə, Xaçmaz, İsmayıllı, Şəki, Kürdəmir, Ağstafa, Şəmkir, Bərdə, Ağcabədi, Ağdaş, Sabirabad, Lənkəran, Masallı və Biləsuvar regional mədəniyyət idarələrinin festival çadırları qurulub, şəhər və rayonların mədəni irsini əks etdirən sənətkarlıq nümunələri, rəsmlər, suvenirlər və digər əl işlərinin sərgisi keçirilib. Festivala gələnlər Azərbaycanın bölgələrinin mədəni zənginliyi, özünəməxsusluğu, qədim tarixi, ənənələri, incəsənət nümunələri ilə maraqla tanış olublar. Parkda təqdim olunan konsert proqramı rəngarəngliyi ilə yadda qalıb. Hər bir regional idarə üzrə folklor qruplarının, incəsənət və bədii özfəaliyyət kollektivlərinin ifasında təqdim edilən musiqi nömrələri, rəqslər hamıda xoş ovqat yaradıb.




Tədbir iştirakçıları təəssüratlarını bölüşərək, yaradıcılıq festivalından razılıqlarını ifadə edib, xalqımızın mədəni irsinin təbliğində layihənin əhəmiyyətini yüksək qiymətləndiriblər.

**Bərdə Regional Mədəniyyət İdarəsinin təmsil edən Elnur Cəfərov** bu cür mədəniyyət tədbirlərinin ölkə turizminin inkişafına dəstək olduğunu deyib: “Azərbaycanın qədim guşələrindən olan Bərdədə hər zaman milli mənəvi dəyərlərin qorunmasına, gələcək nəsillərə çatdırılmasına, mədəni irsin təbliğinə önəm verilib. Zəngin tarixi-mədəni irsə malik Bərdənin həm də turizm potensialı böyükdür. Odur ki, biz sərgidə Bərdəyə aid müxtəlif suvenirlər, əl işləri, turizm çap məhsulları nümayiş etdiririk. Bu isə həm də Bərdənin turizm imkanlarının təbliği deməkdir. Tədbirin bölgələr arasında mədəni mübadilənin daha da dərinləşməsində, regionlararası yaradıcılıq əlaqələrinin genişlənməsində rolunu yüksək qiymətləndirir, festivalın təşkilatçılarına təşəkkürümü bildirirəm”.

**Sumqayıt Dövlət Rəsm Qalereyasının əməkdaşı Gülü Abdullayeva** isə nümayiş etdirdikləri sənətkarlıq nümunələri haqqında məlumat verib: “Biz sərgidə dekorativ tətbiqi sənət ustalarının əl işləri ilə təmsil olunuruq. Sərgidə suvenirlər, miniatür və bəzək nümunələri təqdim edilir. Nümayiş olunan əl işləri, həmçinin milli musiqimiz olan muğama aid əsər və milli geyimlərimiz iştirakçılar tərəfindən böyük maraqla qarşılanır”.

**Lənkəran Regional Mədəniyyət İdarəsini təmsil edən Nurlana İbrahimova** da festivalın böyük maraq doğurduğunu bildirib: “İki gündür Qarabağ torpağındayıq. Dünən Füzulidə, bu gün isə Ağdam rayonunda keçirilən yaradıcılıq festivalında iştirak edirik. Sakinlər sərgilərə, nümayiş edilən sənətkarlıq nümunələrinə, rəsmlərə, digər əl işlərinə çox maraqla baxırlar. Arzu edirəm ki, Xalq Cümhuriyyətinin 101 illiyini hazırda işğal altında olan torpaqlarımızda qeyd edək”.

**Ağdam rayon sakini Xətai Abdullayev** festivaldan razılığını belə ifadə edib: “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən festival hər birimizin ürəyincədir. Azərbaycanın müxtəlif bölgələrinin təmsil olunduğu sərgiyə çox maraqla baxdım, bir daha xalqımızın mədəni irsinin zənginliyinin şahidi oldum. Təqdim olunan musiqi nömrələri isə zövqümüzü oxşadı. Cəbhə bölgəsində belə bir tədbirin keçirilməsi hər bir rayon sakini tərəfindən böyük razılıqla qarşılanır”.

* * *

Qeyd edək ki, “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalı Mədəniyyət Nazirliyinin digər regional idarələrində davam edəcək. Festivalın növbəti ünvanı Mingəçevir şəhəri, daha sonra Göyçay rayonu olacaq.

Beləliklə, layihə çərçivəsində ölkəmizin regionlarının mədəni irsi geniş şəkildə bütün ölkə boyu təqdim və təbliğ olunacaq. Xatırladaq ki, ötən illərdə nazirlik tərəfindən həyata keçirilən “Bölgələrdən paytaxta” layihəsi çərçivəsində ayrı-ayrı şəhər və rayonların mədəni irsi nümayiş olunmuşdu. Cümhuriyyətin 100 illiyi şərəfinə reallaşdırılan “Bölgələrdən bölgələrə” yaradıcılıq festivalı isə ilk dəfə Azərbaycanın bütün regionlarını əhatə etməklə yanaşı, şəhər və rayonlara bir-birinin mədəni zənginliyi, sənətkarlıq irsi və incəsənəti ilə tanış olmağa imkan yaradacaq, bölgələr arasında mədəni mübadilənin gücləndirilməsinə, yeni təşəbbüslərə zəmin olacaq.




**Ülvi QARAYEV,**
**“Respublika”.**

# Birgəyaşayış fəlsəfəsi və milli kimlik

## *(İlham Məmmədzadənin “Mədəniyyətlərin qarşılıqlı təsir fəlsəfəsi və almanların Cənubi Qafqazda məskunlaşması” əsəri haqqında düşüncələr)*

AMEA Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadənin “Mədəniyyətlərin qarşılıqlı təsir fəlsəfəsi və almanların Cənubi Qafqazda məskunlaşması” əsəri Azərbaycan Prezidenti İlham Əliyevin “Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında” Sərəncamında irəli sürülən ideya və tövsiyələrə uyğun olaraq YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının layihəsi çərçivəsində hazırlanmışdır. Kitabın ingilis dilinə tərcümə edilib nəşr edilməsi və keçən ilin sonlarında Berlində Almaniya Xarici İşlər Nazirliyində təqdimatının keçirilməsi bu maraqlı mövzuya xarici ölkələrdə də artan diqqətin göstəricisidir. Əlbəttə, ölkəmizdə almanların məskunlaşması məsələləri, bunun səbəbləri, tarixi mərhələləri və məskunların son aqibəti tarixçilərimiz tərəfindən tədqiqata cəlb edilmiş, bunlarla əlaqədar bir sıra kitablar və elmi məqalələr meydana çıxmışdır. Amma müxtəlif xalqlar arasında qarşılıqlı təsir mədəniyyəti fəlsəfəsinə və azərbaycanlıların almanlarla birgəyaşayış təcrübəsindən çıxarılan nəticələrə dair tədqiqat işləri demək olar ki, yoxdur.

Təqdirəlayiqdir ki, İ.Məmmədzadənin kitabında alman köçkünlərinin Cənubi Qafqazda taleyinin necə olduğu deyil, daha çox burada onların üzləşdiyi mədəniyyətlərin qarşılıqlı təsir fəlsəfəsi araşdırılır, mədəniyyət və mənəviyyat məsələləri mədəniyyətlərin müxtəlifliyi və qarşılıqlı əlaqələri kontekstində nəzərdən keçirilir. Müəllif haqlı olaraq qeyd edir ki, qonşuluqda yaşayan xalqlar, eləcə də hətta bir-birindən coğrafi mənada uzaqda yaşayan xalqlar mədəniyyətlərinin birbaşa və ya hər hansı vasitə ilə qarşılıqlı təmasları nəticəsində bir-biri ilə, həmçinin digər mədəniyyətlər ilə birgəyaşayış fəlsəfəsini formalaşdırırlar. Müəllif yazır ki, bu kontekstdə dərk edilməsi zəruri olan bir neçə maraqlı və mühüm sual meydana çıxır: birincisi, xalqın digər xalqlar və mədəniyyətlərlə yanaşı mövcud olma təcrübəsi və onun dərk edilməsi fəlsəfəsi arasında hansı münasibətlər vardır və ümumiyyətlə, belə münasibətlər mövcuddurmu? İkincisi, bir-birindən fərqlənən xalqlar və mədəniyyətlər arasında birgəyaşayış təcrübəsi necə yaranır və nə üçün bu məsələnin öyrənilməsinin zəruriliyi bizim dövrümüzdə xüsusi əhəmiyyət kəsb edir?

Əsərdə qeyd edildiyi kimi, müxtəlif dinlərə, mədəniyyətlərə mənsub olan və fərqli məkanlardan gəlmiş bir çox xalqlar ölkəmizdə həmişə isti sığınacaq tapmışlar. İndi, multikulturalizm və tolerantlığın mahiyyəti barədə düşüncələrin bütün dünya siyasətçilərinin diqqət mərkəzində olduğu bir zamanda, bizim başqa xalqlarla yanaşı yaşama üzrə mental təcrübəmiz onlarda müəyyən maraq doğurur və bu bizim özümüz üçün də diqqətçəkicidir. Xüsusilə də, müstəqillik əldə edildikdən sonra bu məsələlər xalqımızın tarix və fəlsəfəsində çox aktual olmuşdur. “Bizi həm də bu təcrübədə nəyin müasir dövrün tələblərinə, dünyanın qlobal ölçüdə mövcudluğuna uyğun və qlobal etika adlanan fenomenə daxil olması məsələsi maraqlandırır” - deyən müəllif bu əsərin bizim digər mədəniyyətlərlə birgə mövcud olma təcrübəmizin təhlili və fəlsəfi dərkinə, eyni zamanda günümüzün bu sahədəki çağırışlarına cavab vermək istəyinə xidmət etdiyini vurğulayır. Həqiqətən də bu gün, mədəniyyətlərin dialoqu və həmrəyliyi ideyasının bizim üçün aktual olduğu bir vaxtda, sülhsevərlik, tolerantlıq təcrübəmiz və dəyərlərimizi dünyaya çatdırmaq üçün başqa xalqlarla birgə yaşama təcrübəmizdən inkişafımız üçün necə istifadə etdiyimizi anlamaq vacibdir. Müəllif yazır ki, ölkəmizə gələn, ya göndərilən köçkünlərlə yanaşı yaşama təcrübəsindən çıxardığımız nəticələrin öyrənilməsi bizim yalnız ünsiyyət prosesinin özündə necə dəyişdiyimizin deyil, həm də keçmişdə qazandığımız təcrübəni yenidən mənalandıraraq, bu təcrübədən bu gün istifadə etmək şansını necə əldə edə biləcəyimizin dərk olunmasını nəzərdə tutur. Şübhəsiz ki, bu özünüdəyişdirmədə nəsə itir, lakin biz bir çox şeylər də qazanırıq. Bizim bugünkü həyatımızda mədəniyyətlərarası qarşılıqlı əlaqələr sahəsində qazandığımız təcrübə göstərir ki, biz öz ənənələrimizi qoruyub saxlayırıq, bunlar isə bizə bir çox mövcud problemlərin həllində kömək edir. Ənənələr təcrübədə sınaqdan keçir, ona görə də onlar yenidən təfsir edilir, mənalandırılır ki, insanlara yeni şəraitdə də xidmət etsin.

Müəllifin almanların Cənubi Qafqazda məskunlaşması timsalında mədəniyyətlərin qarşılıqlı təsir fəlsəfəsi haqqında düşüncələrini Azərbaycan və alman filosoflarının və tarixçilərinin ideyalarına əsaslanmaqla irəli sürməsi maraqlıdır. Kommunikasiyaların əhəmiyyətini, onların cəmiyyətlərin sosial və digər transformasiyalarında rolunun dərkini, insan və ideyalar mübadiləsinin sürətlənməsini şərtləndirmiş qloballaşma keçmişin mahiyyətinə və cəmiyyət, xalq və millətlərin təşəkkülü proseslərinin tədqiq olunması üsullarına münasibəti kökündən dəyişir. Mədəniyyət və mədəni mübadilə keçmişi və indini dərk etməyimizdə mühüm amilə çevrilir. Müəllif qeyd edir ki, bizdə intellektual təcrübəmizin ayrılmaz hissəsi kimi ənənəvi multikultural təcrübə təşəkkül tapmışdır. Məhz o, mədəniyyətlərin ünsiyyəti və dialoqu mühitinin yaranmasına imkan yaradır. Məlum olduğu kimi, ənənəvi cəmiyyətdə identiklik dəyişmir, o, gerçəklikdir. Qonşular onun üçün təhlükə yaratdıqda o, sakral, ülvi, yaxud, xüsusilə məhrəm mahiyyət kəsb edir. Bu zaman o, qoruyucu, müdafiə xarakteri daşıyır.

Müəllifin fikrincə dəyərlərin, o cümlədən sakral dəyərlərin dərkinə yuxarıda ifadə olunan yanaşma Azərbaycanın sosiomədəni modernləşməsinə yeni münasibəti də səciyyələndirir. Əvvəllər elmi və ictimai ədəbiyyatda hesab olunurdu ki, sekulyarlaşma (dünyəviləşmə) modernləşmə ilə ayrılmaz surətdə bağlıdır, lakin indi aydın olur ki, cəmiyyət sakrallığın müxtəlif təfsirləri arasında tələb olunan konsensusun köməyi ilə, lakin mütləq qarşılıqlı hörmət saxlanmaqla, modernləşə bilər (postsekulyarlıq). Bu məqam azərbaycanlıların almanlarla yanaşı yaşama təcrübəsinə müraciət etdikdə önəmlidir. Bu təcrübənin dərin tarixi kökləri göstərir ki, keçmişdə də ölkədə təbii şəkildə müsəlmanlar və xristianlar arasında qarşılıqlı münasibət və qarşılıqlı hörmət sahəsində konsensus təşəkkül tapmışdır.

S.Hantinqton özünün məşhur “Sivilizasiyaların toqquşması” kitabında identikliklərin böhranından, qloballaşma dövründə sivilizasiyaların toqquşmasından yazaraq, böhrana təkan verən iki amili: sivilizasiya identikliyinə keçidi və radikal millətçiliyi qeyd etmişdi. İ.Məmmədzadənin fikrincə, dünya bu böhranla dəfələrlə qarşılaşıb və hər dəfə onun öhdəsindən gəlmişdir. Şübhəsiz, qlobal dünya münaqişəlidir və S.Hantinqton öz baxışlarında ideyaların, sivilizasiyaların qarşıdurmasının inkişafa impuls verdiyini göstərən A.Toynbi ənənəsini davam etdirir. Müəllifin fikrincə, mübarizə və toqquşmalar müasir dövrdə ara vermir, lakin bu, sivilizasiyaların dialoqunu inkişaf etdirmək imkanlarının, dialoqun yalnız qonşu mədəniyyətlər deyil, birbirinə yaxın olmayan mədəniyyətlər arasında da mümkün olduğunu inkar etməyə əsas vermir. Bütöv bir tam kimi “düşünülən dünya ideyası” başqa mədəniyyətlərin əhəmiyyətinin etiraf edilməsini nəzərdə tutur. Üstəlik, ayrı-ayrı mədəniyyətlər daxilində mühüm əməkdaşlıq və qarşılıqlı yardım təcrübəsi toplanmışdır, hərçənd çoxlu düşmənçilik təcrübəsi də vardır. S.Hantinqton münaqişələrin mənbəyi qismində soyuq müharibə dövrü toqquşmalarında olduğu kimi iqtisadiyyatı və ideologiyanı deyil, mədəniyyəti göstərir. Lakin o unudulur ki, mədəniyyət yalnız ayırmır, o, həm də birləşdirməyə qadirdir.

Bakıda Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ardıcıl beynəlxalq humanitar forumlar keçirilir. Bu forumların materialları aydın şəkildə göstərir ki, dünyada mədəniyyətlərin dialoqu nəzəriyyəsinin formalaşdırılmasına yönəlmiş ciddi təmayül mövcuddur. Qeyd edək ki, onun işlənib hazırlanmasına Azərbaycan filosofları, o cümlədən təqdim olunan kitabın müəllifi müəyyən töhfələr vermişlər. Keçmişi dərketmə təcrübəsi göstərir ki, cəmiyyətlər nadir hallarda tamamilə homogen, eyni mənşəli olur. Bir qayda olaraq, onlar müxtəlif mədəniyyətləri ehtiva edir. Mədəniyyətlərin qarşılıqlı təsiri, mədəniyyətlərin bu və ya digər dərəcədə kortəbii dialoq təcrübəsi bütün cəmiyyətlərin tərkib hissəsidir.

Bəzi alimlər hesab edir ki, yalnız homoloji baxımdan bənzər mədəniyyətləri müqayisə etmək olar, analoq oxşarlığı isə mədəniyyətlərin bənzərliyi və fərqinin təhlilini yalnız çətinləşdirir. Buna görə də onlar hesab edirlər ki, xristianlıq və islamı, avtoxton xalqlar və miqrantlar arasında analoq oxşarlığını və s. müqayisə etmək olmaz. İ.Məmmədzadə bu kimi fikirlərin əsaslı olmadığı qənaətindədir.

Aydındır ki, qloballaşma şəraitində bütün mədəniyyətlər bir-birinə heç də bənzər deyildir. Bununla belə, bütün fərqlərə rəğmən, dünyanın informasiya və qloballaşma dövrünə qədəm qoyduğunu göstərən proseslər gedir. Bu onu göstərir ki, natamam, yaxud analoq oxşarlığı müxtəlif mədəniyyətlərin nüvəsində dəyişikliklərə səbəb olur. Əsərdə göstərilir ki, müxtəlif tarixi dövrləri tədqiq edərkən, lokal mədəniyyətlərin və universal mədəniyyətin qarşılıqlı təsirində ümumi və xüsusinin fəlsəfəsinə və dialektikasına müraciət etmək lazımdır. Fəlsəfi baxımdan multikulturalizm həm hər bir ayrıca xalqın, həm də bütün dünyanın müasir mədəniyyətinin tərkib hissələrinin vahidliyi və müxtəlifliyinin tanınması, habelə onların uzlaşdırılmasında ölçünün başa düşülməsidir. Vahidlik və müxtəlifliyin uzlaşdırılması axtarışlarında uğur daha çox keçmişin təcrübəsini indiki zamanda görmək və onun perspektivlərini müəyyən etmək kimi rasional bacarıqla bağlıdır. Belə material fəlsəfənin tarixi hissəsində bir o qədər də dərk olunmamışdır. Azərbaycan dilini götürsək, onda da müxtəlif dillərdən alınma sözlər tapmaq mümkündür, eposa müraciət etsək, burada da xeyli müxtəlif mədəni qatlar mövcuddur.

İ.Məmmədzadənin fikrincə, milli mədəniyyətlərin inkişafında fərqlərin dərki həm onun çoxmədəniyyətli əsaslarının tədqiqi, həm də sərhədləri ləğv etməyən, mədəni təcrübələrin ünsiyyəti və müxtəlifliyi üçün şərait yaradan ümumi qlobal mədəniyyət və etika mövzusunda düşüncələrə marağı aradan qaldırmamalı, əksinə, şərtləndirməlidir. Biz orta əsrlər Azərbaycan filosofları Bəhmənyar, Nizami, Nəsimi, Füzuli, Şəbüstəri və başqalarının ideyalarına müraciət edərkən görürük ki, onlar, bir qayda olaraq, müxtəlif etnik mənşəli insanlar arasında məhəbbəti, yəhudi, məsihi və islam peyğəmbərlərinin böyüklüyünü, bilik, etiqad və zəkanın xeyirə xidmət etməli olduğunu ehtiva edən ideyaları müdafiə edirdilər. Yada salmaq olar ki, N.Tusi insanlar arasında harmoniya yaradılması yolları haqqında düşünürdü. Bu ideyalar eyni dərəcədə aydın şəkildə XVIII, XIX və XX əsr filosoflarının, tarixçilərinin, alimlərinin və maarifçilərinin baxışlarında təmsil olunmuşdur.

Müəllif vurğulayır ki, Azərbaycan tarixən müxtəlif etnosların, konfessiyaların burada yaşadığı, fərqli adət-ənənə və həyat tərzinin yanaşı mövcud olduğu və hazırda polikültür sabitliyin olduğu və tolerantlıq dəyərlərinin prioritet təşkil etdiyi yer olaraq qaldığı ölkədir. Eyni zamanda, qloballaşma milli identiklik üçün ən çətin sınaq oldu — bunu bir çox alimlər etiraf edirlər. Təəssüf ki, onların əksəriyyəti bu çətinliklərin aradan qaldırılmasında dövlət və liderin gücünü lazımi qədər qiymətləndirmirlər. Digər birlik, xalq və mədəniyyətlərə münasibətimizin identikliyimizin inkişafında oynadığı rol da layiqincə qiymətləndirilmir. Aydındır ki, bizim digər etnik qruplarla, o cümlədən almanlarla, ruslarla, yəhudilərlə və s. yanaşı yaşayış təcrübəmizdən yeni şəraitdə istifadə oluna bilər. Beləliklə, Azərbaycan Respublikası Prezidentinin almanların Cənubi Qafqaza köçürülməsinin 200 illiyi haqqında Fərmanı cəmiyyətə çoxəsrlik multikulturalizm təcrübəsinə münasibət haqqında mesaj kimi çıxış edir.

İ.Məmmədzadə yazır ki, yalnız fəlsəfi yanaşma milli ideyaya keçmişdəki, bugünkü və gələcəkdə olacaq konseptual surətdə əsas çağırışları aşkar etməyə, onlara tarixin müxtəlif mərhələlərində cavab verilməsində dövlət və liderin rolunu dərk etməyə imkan verir. Filosoflarımız bir çox əsərlərində bu məsələləri təhlil edirlər. Bu kontekstdə filosof-akademik Ramiz Mehdiyevin 2017-ci ildə Moskvanın “Политическая энциклопедия“ nəşriyyatı tərəfindən çap edilmiş “Qlobal transformasiyalar dövründə Azərbaycan milli ideyası ideyasının nə olduğunun konsepti verilir, onun inkişafında mədəniyyətin tutduğu yer, həmçinin zamanın çağırışlarına cavab verilməsində dövlət və liderin, milli ideologiyanın rolunun dialektikası göstərilir.

Kitabda qeyd olunur ki, hər millət öz tarixinə malikdir. O, müstəqil dövlətin yaradılmasından güclü və inkişaf etməyə olan dövlətə doğru bir yol keçir. Beləliklə, milli ideya liderlə, dövlətlə, onun təşəkkülü və inkişafı ilə bərk-bərk bağlıdır. Bu məsələlərin əsas leytmotivi də, elmi-fəlsəfi və ideoloji aktuallığı da ölkənin zamanın çağırışlarına cavab vermək iqtidarında olması üçün milli ideyanın necə olması ilə müəyyən olunur. Qeyd edək ki, bir çox tədqiqatçılar milli ideyanın inkişafında dövlət və liderin rolunu lazımınca qiymətləndirmirlər və zənnimizcə, bu, onunla əlaqədardır ki, XX əsrdə siyasi araşdırmaların mərkəzində daha çox birlik, xalq, siniflər, kütlə və vətəndaş cəmiyyəti yerləşirdi. XX əsrin sonunda, ölkə qarşısında bütün kəskinliyi ilə müasir müstəqil dövlətin yaradılması vəzifəsi durduğu zaman, milli dövlət quruculuğunda liderin, millətin inkişafında isə dövlətin rolunun, liderin qonşu xalqlar xüsusunda həmrəylik siyasətini formalaşdırmasının və öz xalqının təcrübəsinin ən yaxşı xüsusiyyətlərinə əsaslanmasının nə dərəcədə vacib və əhəmiyyətli olduğu bizə aydın oldu.

Heydər Əliyev elə məhz xalqın istəklərini doğruldan lider oldu. Azərbaycan xalqı zəruri keyfiyyətlərə və idarəçilik səriştəsinə, bilik və təcrübəyə malik olan, ən başlıcası isə, xalqı tərəqqiyə doğru aparmaq üçün onun etimadını qazanmış lideri seçərək, taleyini öz əlinə ala bildi. Heydər Əliyevi ölkəyə görə məsuliyyəti öz üzərinə götürməyə qadir olan bir lider hesab edən insanların etimadı onun Azərbaycan prezidenti seçilməsi üçün həlledici şərt oldu. Heydər Əliyev xalqın etimadını, hər şeydən öncə, ona görə doğrultdu ki, onun mahiyyəti aşağıdakından ibarət təsirli strategiya və fəlsəfəsi var idi: hər bir millətin öz inkişaf yolu vardır, amma o, başqalarının da təcrübəsini nəzərə almaya bilməz.

Heydər Əliyev xalqımızın Azərbaycanın müxtəlif yerlərində məskunlaşmış almanlara böyük hörmətlə yanaşdığını dəfələrlə vurğulamışdır. O, çox istəyirdi ki, ölkəmizin alman xalqı ilə əlaqələri qırılmasın və öz davamını tapsın. Çünki dövlət müstəqilliyinin, milli identikliyin qorunub saxlanması və inkişaf etdirilməsi ayrılmaz surətdə dünya birliyinə, ümumdünya məkanına inteqrasiya ilə bağlıdır.

İ.Məmmədzadə əsərdə vurğulayır ki, mahiyyəti və mənasını Heydər Əliyevin öz siyasəti, bütün həyatı ilə ifadə etdiyi azərbaycançılıq ideologiyası bütün cəmiyyətin qəbul etdiyi bu günün və gələcəyin müasir mənəvi, siyasi-mədəni və tarixən zənginləşdirilmiş dərkidir. Aydın olur ki, Heydər Əliyev güclü, nəinki öz təsisatları, həm də cəmiyyətlə, onun dəyər və ənənələri ilə birliyi sayəsində güclü olan dövlət konseptinin əsaslarını yaratmışdır. Görünür, həm də buna görə Prezident İlham Əliyevin Azərərbaycanın inkişafı və müasirləşdirilməsinə yönəlmiş səmərəli siyasəti bütün sahələrdə — iqtisadiyyatda, demokratik islahatlarda, mədəni quruculuqda, xarici siyasətdə - uğurla davam etdirilir. Bu da, xüsusi əhəmiyyət daşıyır - həmin ideologiya müxtəlif xalqları, mədəniyyətləri, ənənələri, konfessiyaları özündə üzvi surətdə birləşdirir. Mədəni müxtəliflik və multikulturalizm siyasəti də öz mənbəyini məhz bu özünüdərkdə və siyasi xətdə tapır. Azərbaycançılıq ideyası bütövlükdə Azərbaycanda yaşayan və onu öz Vətəni hesab edən bütün etnik-dini qruplar üçün birləşdirici amildir.




Ulu öndər Heydər Əliyevin strateji kursunu davam etdirərək və yaradılmış sosial-iqtisadi bazaya əsaslanaraq Prezident İlham Əliyev zamanın yeni çağırışlarına müdrikliklə cavab verir, bu isə sənaye cəmiyyəti problemlərini sürətlə həll etmək və postsənaye (informasiya) cəmiyyəti quruculuğuna keçmək deməkdir. Eyni zamanda, Prezident cəmiyyətin bütün sahələrinin yenilənməsinə çalışır. Demək olar ki, onun yanaşması Azərbaycanın inkişaf yollarının innovasion dərkinin daimi axtarışıdır. Bu konteksdə Azərbaycan filosoflarının modernləşmə nəzəriyyəsini dərindən tədqiq etməsi, onun müxtəlif mərhələlərini təhlil etməsi və keçmişin cəmiyyətin müasirləşdirilməsinə kömək edə bilən fenomenal xüsusiyyətlərini dərk etməsi nəzəri əhəmiyyət kəsb edir.

Azərbaycanın milli ideya fəlsəfəsi, azərbaycançılıq haqqında və alman köçkünlərinə münasibətin bizim üçün əhəmiyyətinin yalnız tarixi kontekstlə məhdudlaşmadığı barədə öz orijinal fikirlərini irəli sürən İ.Məmmədzadənin fikrincə, azərbaycanlılar həmişə bundan çıxış etmişlər ki, burada yaşayan bütün insanlar xalqımızın, mədəniyyətimizin, adət və ənənələrimizin ayrılmaz tərkib hissəsidirlər.

**Eynulla MƏDƏTLİ,**
**AMEA Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent.**











## Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu aşağıdakı

# AÇIQ TENDERİ ELAN EDİR

Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun "Avtomatlaşdırılmış Baş Mühasibat Uçotu Sistemi"nin yenilənməsi ilə bağlı mal və xidmətlərin satınalınmasına dair Açıq tender.

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu (bundan sonra- Fond) Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə yaradılan qeyri-kommersiya hüquqi şəxsdir. Fond barədə ətraflı məlumatları http://www.mcgf.az ünvanında yerləşən internet səhifəsindən əldə etmək olar.

Tender üzrə prosedurlar **07 avqust 2018-ci il tarixində saat 15.00-da** Fondun inzibati binasında təklif zərflərinin açılması ilə başlanılacaqdır.

**Tenderdə iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı sənədləri təqdim etməlidir:**

*-tenderdə iştirak etmək üçün ərizə;*

*-iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*

*-təklif;*

*-təklifin qiymətinin 1 faizi həcmində təminat (bank qarantiyası);*

*-iddiaçının hüquqi statusunu əks etdirən sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış, VÖEN, ƏDV qeydiyyatının olub-olmamasını müəyyən etməyə imkan verən sənəd və s.) notariat qaydasında təsdiq edilmiş surətləri;*

*-iddiaçının iş təcrübəsini təsdiq edən sənədlərin surətləri;*

*-tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*

*-iddiaçının fəaliyyətinin axırıncı ili üzrə maliyyə vəziyyəti haqqında bank arayışı və bank rekvizitləri;*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Vergilər Nazirliyi və Dövlət Sosial Müdafiə Fondu tərəfindən arayışlar);*

*-iddiaçının analoji işlərdə təcrübəsi, maliyyə, potensial texniki və kadr imkanlarına dair:*

- ✓ Son 3 ildə iddiaçının orta illik dövriyyəsinin 500 000 (beş yüz min) manatdan az olmamasını təsdiq edən sənəd;
- ✓ Oxşar layihələr üzrə iş təcrübəsini təsdiq etmək üçün belə layihələrin həyata keçirildiyi ən azı 3 (üç) müəssisə və təşkilatldan tövsiyə məktubu;
- ✓ İddiaçının layihənin icrasına cəlb olunacaq işçilərinin tərcümeyi-halları və texniki kvalifikasiyalarını təsdiq edən sənədlər;
- ✓ Əsas şərtlər Toplusuna 1 №-li Əlavədə qeyd olunan digər sənəd və məlumatlar.

*-Əsas şərtlər toplusunda qeyd olunan digər sənəd və məlumatlar.*

*-İddiaçı təqdim edəcəyi xidmətlərin keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.*

**Tenderdə iddiaçı kimi iştirak etmək istəyən malgöndərənlər aşağıdakı tələblərə cavab verməlidir:**

*-öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*

*-müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*

*-tender prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli xidmətlər üzrə xidmət təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni xidmətlərin təklif edilən qiymətinin 20 faizi həcmində **güzəştli düzəliş** tətbiq ediləcəkdir.

**İcra müddəti:** Açıq tenderin Əsas şərtlər toplusuna uyğun olaraq müəyyən edilmişdir.

Tenderin Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Açıq tenderdə **iştirak haqqı 250 manat** məbləğində müəyyən edilmişdir. İştirak haqqı Fondun aşağıdakı hesabına ödənildikdən sonra tenderin Əsas şərtlər toplusu malgöndərənlərə təqdim ediləcəkdir:

**Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu**

**Ünvan: AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 40**

**VÖEN: 1403502281**

**H/h: AZ57NABZ01360450000000005944**

**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**

**VÖEN: 9900071001**

**Kod: 501004**

**M/h: AZ74NABZ01451700000000001944**

**S.W.İ.F.T bik: NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tender üzrə ilkin sənədlər **26 iyul 2018-ci il** tarixinədək, təklif zərfləri və təklifin təminatı isə **06 avqust 2018-ci il** tarixinədək qəbul ediləcəkdir.

Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsin iş telefonu və faks nömrəsi: (+99412) 441-24-23 (daxili 133), Faks: (+99412) 598-11-77.

**Açıq tender komissiyası.**

*Baş Prokurorluq:*

# Sosial şəbəkələrdə və bəzi saytlarda təxribat xarakterli çağırışlarla əlaqədar cinayət işləri başlanılıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və polis əməkdaşı Qasım Aşbazova qarşı törədilmiş cinayət hadisəsi ilə əlaqədar bəzi saytlarda və sosial şəbəkələrdə təxribat xarakterli çağırışlarla bağlı cinayət işlərinin başlanılmasına dair məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 2018-ci il iyulun 3-də Rusiya Federasiyası vətəndaşı Yunis Səfərovun Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və polis əməkdaşı Qasım Aşbazova qarşı törətdiyi məqsədyönlü şəkildə əvvəlcədən planlaşdırılmış terror aktı ilə əlaqədar bəzi kütləvi informasiya vasitələrinin vəzifəli şəxsləri, həmçinin ayrı-ayrı şəxslər tərəfindən internet informasiya resursları vasitəsi ilə həqiqətə uyğun olmayan təxribat xarakterli məlumatlar yayılıb.

Həmin məlumatlara ictimai rəyi çaşdırmaq, ictimai-siyasi sabitliyi pozmaq, terrorçuluğu dəstəkləyən, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmaq, cinayətkarlığa qarşı mübarizə sahəsində hüquq mühafizə orqanları tərəfindən görülən işlərin üzərinə kölgə salmaq məqsədi ilə bilə-bilə yalan məlumatlar, eləcə də yayılması qanunla qadağan edilən informasiyalar daxil edilərək terrorçuluğa və hakimiyyətin zorla ələ keçirilməsinə və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar edilib.

Belə ki, bəzi profillər vasitəsi ilə sosial şəbəkələrdə müxtəlif məzmunlu paylaşımlarda və ya şərhlərdə terrorçuluğa açıq çağırışlar edilməsi faktları üzrə Cinayət Məcəlləsinin 214-2-ci (terrorçuluğa açıq çağırışlar) maddəsi ilə cinayət işləri başlanıb.

Bundan başqa, sosial şəbəkələrdə müxtəlif məzmunlu paylaşımlar etməklə insanları qanunsuz etiraz aksiyaları təşkil edərək hakimiyyətin zorla ələ keçirilməsinə və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar edilməsi faktı ilə bağlı isə Cinayət Məcəlləsinin 281.1-ci (dövlət əleyhinə yönələn açıq çağırışlar) maddəsi ilə cinayət işi başlanıb.

Həmin cinayət işləri ibtidai istintaqın aparılması üçün Dövlət Təhlükəsizliyi Xidmətinə göndərilmiş və hazırda təqsirli şəxslərin müəyyənləşdirilib məsuliyyətə cəlb olunmaları üçün əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Göstərilənlərlə yanaşı, "criminalaz.com" və "bastainfo.com" internet saytlarının internet informasiya resurslarına məlumatları yerləşdirməyə məsul olan vəzifəli şəxsləri ötən dövr ərzində "Kütləvi informasiya vasitələri" haqqında Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin tələblərini pozduqlarına görə Baş Prokurorluq tərəfindən iki dəfə rəsmi xəbərdarlıq edilmələrinə baxmayaraq, həmin qanunun tələblərini qərəzli şəkildə yenidən pozaraq 2018-ci il 3-6 iyul tarixlərdə dərc edilmiş müxtəlif başlıqlı məqalələrdə ictimai rəyi çaşdırmaq, ictimai-siyasi sabitliyi pozmaq, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmaq məqsədi ilə bilə-bilə yalan məlumatlar, eləcə də yayılması qanunla qadağan edilən informasiyalar daxil edərək yayımlayıblar.

Həmin faktlarla bağlı Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı, yəni vəzifəli şəxs tərəfindən informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi) maddəsi ilə cinayət işi başlanmaqla ibtidai istintaqın aparılması Bakı şəhər prokurorluğuna tapşırılıb.

Azərbaycan Respublikası Baş Prokurorluğunda aparılmış araşdırmalarla "topxeber.az" və "fia.az" internet saytlarının vəzifəli şəxsləri tərəfindən "Kütləvi informasiya vasitələri" haqqında Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin tələblərinin kobud şəkildə pozulması, cəmiyyətdə çaşqınlıq yaranmasına səbəb olan, konkret faktlara əsaslanmayan, sensasiya xarakterli məlumatların məqsədli şəkildə yayılması müəyyən edilib.

Bununla əlaqədar, internet saytlarının rəhbərləri Baş Prokurorluğa dəvət edilərək, onlardan "Prokurorluq haqqında" Qanunun tələblərinə müvafiq olaraq rəhbəri olduqları internet saytlarında sensasiya naminə informasiyaların yayılmasına son qoyulması tələb edilməklə, gələcəkdə dövlətin rəsmi qurumlarının mətbuat xidmətləri ilə dəqiqləşdirmə aparmadan qanunazidd əməllərini davam etdirəcəkləri təqdirdə barələrində cinayət məsuliyyəti də daxil olmaqla qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlər görüləcəyi barədə rəsmi xəbərdarlıq ediliblər.

"Bastainfo.com", "criminalaz.com", "topxeber.az" və "fia.az" internet saytlarının internet informasiya ehtiyatına müraciətlərinin məhdudlaşdırılması və digər məhdudiyyətlərin tətbiqi üçün müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müraciət edilib.

Baş Prokurorluq tərəfindən bir daha kütləvi informasiya vasitələrinə, o cümlədən sosial şəbəkə istifadəçilərinə ("Facebook", "Twitter", "İnstagram" və s.) "Kütləvi informasiya vasitələri" haqqında Qanunun tələblərinə riayət etmələrinə dair xəbərdarlıq olunmaqla ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin pozulmasına, terrorçuluğu dəstəkləyən, əhali arasında vahimə yaratmaq məqsədilə dövlət və ictimai xadimlərin həyatına sui-qəsd etməklə terrorçuluğa açıq çağırışlar, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmaq, insanları konkret yeri və vaxtı göstərilərək qanunsuz etiraz aksiyaları keçirməyə təhrik etməklə hakimiyyətin zorla ələ keçirilməsinə və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar və digər istənilən qanunazidd hərəkətlərin qarşısının alınması üçün respublikanın hüquq mühafizə orqanları tərəfindən monitorinq həyata keçirilməklə bu cür hərəkətlərə yol verən müvafiq şəxslər barəsində ən ciddi məsuliyyət tədbirlərinin görülməsi təmin ediləcək.

**AZƏRTAC**

## Bakı Konqres Mərkəzi MMC

# AÇIQ TENDER ELAN EDİR

**Tender 5 lot üzrə keçirilir:**

**Lot-1.** Mərkəzin kiçik ölçüdə maketlərinin hazırlanması

**Lot-2.** Mərkəzin internet səhifəsinin dizaynı və satışı

**Lot-3.** Mərkəzin video çəkilişinin aparılması

**Lot-4.** Seyflərin alınması

**Lot-5.** Daşınmaz əmlakın icbari sığortası

Tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

